# Təkfir dinin əslidirmi?

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Sonuncu peyğəmbər Muhamməmdə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

İnsanları zəncirvari təkfir fitnəsinə bulaşdıran və Əhli Sünnənin etiqadı və tövhid dəvəti adı altında insanları haqsız yerə təkfir edən və yalnız Allahın bildiyi fəsadlara səbəb olan qədim xəvariclərin və mötəzililərin davamçıları aşırı təkfirçilərin bir şübhəsinə cavab veriləcək. Belə ki, onlar təkfirin dinin əsli olması iddiası ilə, cəhaləti üzr görən şəxslərin kafir olduqlarını, üstəlik onları təkfir etməyənlərin və beləcə sonsuza qədər onları təkfir etməyənlərin kafir olduqlarını demişlər. Bu batil şübhənin ortaya gəlməsinə ən başlıca səbəb, bu sözün batil əsaslar üzərində qurulması və bu sözü deyənlərin Əhli Sünnənin mənhəcindən çıxıb mötəzili və digər sapmış firqələrin üsullarına uymalarıdır.

Bu risalədə təkfirin dinin əsli olması iddiasına cavab veriləcək və onların üsullarının batilliyi bəyan ediləcək. Müvəffəq edən Allah Cəllə və Alədir.

Mövzuya bir başa keçməzdən öncə, bəzi məqamları bilməyimiz lazımdır. İlk öncə həm ərəb dilində, həm də şəriətdə "əsl" kəlməsinin tərifini, daha sonra şəriətdə dinin əsilləri (yəni üsulları) deyildikdə, nəyin qəsd olunduğunu bilmək lazımdır.

Əvvəla ərəb dilində varid olan "əsl" sözünün tərifini biləк.

Ərəb dilçiləri "əsl" kəlməsinə tərif verdikləri zaman deyirlər ki: Əsl, digər şeyin onun üzərinə qurulduğu bir şeydir.

İmam Əbul Muzaffər əs-Səmani (Qavatiul ədillə:35) kitabında buyurur:

يقال في حد الأصل: ما ابتنى علبه غيره، و الفرع: ما بني علي غيره

"Əsl kəlməsinin tərifinə dair deyiləcək: Digərinin onun üzərinə qurulduğu şeydir. Fər` (şaxə) isə: Digərinin üzərinə qurulan şeydir."

Hənbəli alimi İbn Nəccər (Şərhul kəukəbil munir:1/39) kitabında "əsl" kəlməsinin lüğəti və istilahi mənasını bəyan edərək buyurur:

فأصول: جمع أصل، و هو لغة ما يبنى عليه غيره، قاله الأكثر، و قيل أصل الشيء ما منه الشيء، و قيل: ما يتفرع عليه غيره، و قيل: منشأ الشيء و قيل: ما يستند تحقق الشيء إليه، والأصل اصطلاحا، أي في اصطلاح العلماء: ما له فرع، لأن الفرع لا ينشأ إلا عن أصل،

"Üsul, əsl sözünün cəmidir. Onun lüğəti mənası isə, digər şeyin onun üzərinə qurulduğu bir şeydir. Bunu əksəriyyət demişlər. Habelə deyilmişdir ki, bir şeyin əsli, digər şeyin ondan əsas götürdüyü bir şeydir. Habelə deyilmişdir ki, digərinin ondan şaxələndiyi şeydir. Habelə deyilmişdir ki, hər hansı bir şeyin mənbəyidir. Həmçinin deyilmişdir ki, bir şeyin gerçəkləşməsi ona söykənir. Əsl sözünün alimlərin istilahında olan mənası isə: Şaxəsi olan şeydir. Çünki şaxə yalnız əsildən əsas götürür."

Daha sonra İbn Nəccər əsl sözünün alimlərin istilahında dörd şeyə şamil edildiyini deyib buyurur:

الأول: علي الدليل غالبا، أي في الغالب، كقولهم (أصل هذه المسألة الكتاب و السنة) أي دليلها، و هذا الاطلاق هو المراد هنا، أي في علم الأصول

الثاني: علي الرجحان، أي علي الراجح من الأمرين، كقولهم (الأصل في الكلام الحقيقة دون المجاز) و (الأصل براءة الذمة) و (الأصل بقاء ما كان علي ما كان)

الثالث: علي القاعدة المستمرة، كقولهم (أكل الميتة علي خلاف الأصل) أي علي خلاف الحالة المستمرة

الرابع: علي المقيس عليه، و هو ما يقابل الفرع في باب القياس.

"Birinci: Əsasən dəlilə deyilir. Misal üçün: Bu məsələnin əsli Kitab və Sünnədir. Yəni onun dəlilidir. Burada, yəni üsul elmində istifadə edilən əsl kəlməsindən bu məna qəsd edilir.

İkinci: Üstün görüşə deyilir. Yəni iki şeydən daha üstün olana deyilir. Misal üçün: Kəlamın əsli məcaz deyil həqiqətdir. Habelə: Əsl, zimmətin bəraətidir. Həmçinin: Əsl, mövcud bir şeyin olduğu halı üzərə qalmasıdır.

Üçüncü: Daimi qaydaya deyilir. Misal üçün: Leş yemək əsli olana müxalifdir. Yəni daimi hala müxalifdir.

Dördüncü: Qiyas olunana deyilir. O da, qiyas bölümündə şaxənin (furuatın) müqabilində olan şeydir.”

Bəlli olur ki, imamlar öz kitablarında əsl kəlməsinin istilahi mənası olaraq bu dörd mənalardan birini istifadə etmişlər və hər birini ona münasib məqamda qeyd etmişlər.

İndi isə dinin üsulları deyildikdə nəyin qəsd olunduğunu bilək. Yəni adicə istilahi mənada gələn “əsl” kəlməsi ilə dinin əsli yaxud üsulları sözlərini qarışdırmamaq gərəkdir. Çünki əsl kəlməsi din sözünə izafətli şəkildə istifadə edilib dinin əsli yaxud üsulları deyiləcəyi zaman tamamilə fərqli mənanı ifadə edəcək.

Alimlər dinin üsulları kəlməsi haqda müxtəlif görüşlər irəli sürmüşlər. Lakin təriflərin müxtəlifliyinə rəğmən onlar nəticə etibarı ilə eyni sözləri demiş və onların ixtilafı daha çox ləfzi ixtilaf olmuşdur.

Belə ki, dinin əsasları: Əqli və xəbəri olması etibarı ilə qəti dəlillərin dəlalət etdiyi məsələlərdir. İstər həmin məsələlər əməli yaxud sözlü olsun fərq etmir. Misal üçün tövhid, Allahın sifətləri, qədər, nübuvvət, məad (diriliş) və bu kimi digər məsələlər. Bir çox son dönəmin alimlərinə görə dinin üsulları buna deyilir.

Şeyxul-İslam İbn Teymiyyə (Dər`u təarudil aqli van nəql:1/27) buyurur:

ذلك أن أصول الدين إما أن تكون مسائل يجب اعتقادها، و يجب أن تذكر قولا أو تعمل عملا، كمسائل التوحيد و الصفات و القدر و النبوة و المعاد، أو دلائل هذه المسائل

“Belə ki, dinin üsulları etiqad edilməsi vacib olan və söz olaraq qeyd edilməsi yaxud əməl olaraq edilməsi vacib olan məsələlərdir. Misal üçün tövhid, sifətlər, qədər, nübuvvət, məad kimi yaxud da, həmin məsələlərə dəlalət edən amillərdir.”

Habelə Şeyxul-İslam (Məcmu əl-fətəva:12/496) buyurur:

إن الإيمان بوجوب الواجبات الظاهرة المتواترة و تحريم المحرمات الظاهرة المتواترة، هو من أعظم أصول الإيمان و قواعد الدين

“Həqiqətən mütəvatir olan aşkar vaciblərin vacibliyinə və mütəvatır olan aşkar haramların haramlığına iman etmək, ən əzəmətli imanın üsullarından və dinin təməllərindəndir.”

Şeyxul-İslamın –rahiməhullah- bu sözlərindən anlaşılır ki, dinin üsulları deyildikdə, sözlü yaxud əməli olsun, etiqad edilməsi vacib olan məsələlər qəsd edilir.

Bir sözlə üsulud din, İslam dininin təməlləri və əsasları olan şeylərdir. Həmin üsulların ən önəmlisi və başlıcası Uca Allahın təkliyinə, yəni ilə iləhə illəllah kəlməsinə və Muhamədin Allahın qulu və elçisi olmasına şahidlik etmək və bunu etiqad etməkdir. Çünki insanın İslam dininə daxil olması üçün ilk növbədə  şəhadəti dilə gətirməsi gərəkdir. Qeyd olunan şeylər İslam dininin təməlləri və üsullarıdır. İslam dini deyildikdə isə, Muhammədin –salləllahu aleyhi və səlləm- gətirdiyi şəriət qəsd edilir.

İmam İbn Dəqiq əl-İd “İhkəmul əhkəm” kitabında buyurur:

و البداءة هي المطالبة بالشهادتين لأن ذلك أصل الدين الذي لا يصح شيء من فروع الدين إلا به

“Başlanğıc olaraq, şəhadət kəlməsi tələb olunur. Çünki bu, dinin əslidir. Dinin furuatlarından heç bir şey onsuz səhih olmur.”

Ümumi anlamda gələn İslamın, yəni tövhidin əsli isə, Lə iləhə illəllah şəhadətidir. Çünki misal olaraq, bizdən öncəki ümmətlərə tövhid dininə daxil olmaq üçün bizim şəriətə xas olan bəzi məsələlər mövcud olmayıb. Misal üçün bizdən öncəki ümmətlərə tövhid dininə girmək üçün Muhammədin Allah Rəsulu olmasına şahidlik etmək deyə bir öhdəçilik olmayıb. Ancaq bütün ümmətlərə tövhid dininə girmək üçün lə iləhə illəllah şahidliyini gətirmələri vacib olmuşdur. Çünki Allahın təkliyini və Onun yaradan və bütün məxluqatın işlərini idarə edən olmasını bilmək, fitrət və ağıl vasitəsilə dərk ediləb və bilinən işdir. Bu üzdən elm əhli dinin əsli dedikləri zaman, məhz Adəmdən başlayaraq qiyamətə qədər olan bütün bəşəriyyətə fərz olan lə iləhə illəllah tövhid kəlməsini qəsd etmişlər.

Şeyxul-İslam İbn Teymiyyə (məcmu əl-fətəva:10/15) buyurur:

و لهذا كان رأس الاسلام شهادة أن لا إله إلا الله، و هي متضمنة عبادة الله وحده، و ترك عبادة ما سواه، و هو الاسلام العام الذي لا يقبل الله من الأولين و الآخرين دينا سواه، كما قال تعالي: (و من يبتغ غير الاسلام دينا

فلن يقبل منه و هو في الآخرة من الخاسرين)، و قال تعالي: (شهد الله أنه لا إله إلا هو و الملائكة و أولو العلم قائما بالقسط لا إله إلا هو العزيز الحكيم، إن الدين عند الله الاسلام)، و هذا الذي ذكرناه مما يبين أن أصل الدين في الحقيقة هو الأمور الباطنة من العلوم و الأعمال، و أن الأعمال الظاهرة لا تنفع بدونا

"Buna görə də İslamın əsası lə iləhə illəllah şəhadəti olmuşdur. O isə tək olan Allaha ibadət etməyi və Ondan başqasına edilən ibadəti tərk etməyi özündə şamil edir. Bu isə o ümumi İslamdır ki, Allah nə əvvəlkilərdən nə də sonrakilərdən ondan qeyrisini qəbul etməz. Uca Allah buyurur: *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."* Habelə buyurur: *"Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər. Allah əbədi olaraq ədalətli olmaqdadır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir. Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!"* Bizim bu qeyd etdiyimiz şeylər bəyan edir ki, əslində dinin əsli, elmlər və əməllərdən ibarət olan daxili işlərdir və onsuz zahiri əməllər heç bir fayda vermir."

Habelə dinin əsli digər şər`i əhkamlardan bir sıra şeylərlə fərqlənir:

O, mükəlləflərin üzərində olan ilk vacibdir. İnsan İslam dininə ilk olaraq onunla girir. Habelə o, fitrət və ağılla bilinir. Şəriətlərinin müxtəlifliyinə rəğmən bütün peyğəmbərlər insanları ilk növbədə ona çağırmışlar. Habelə o, Adəmin dövründən qiyamət gününəcən olan bütün Allahı təkləşdirən insanları - istər onlara elçilərin risalətləri çatsın istərsə də, hənliflər və sabiilər kimi fətra dönəmində yaşayanlar olsunlar, xilas edəcək tövhidin özülüdür. Bütün bu dövrlər və zamanlarda yaşamış muvahhidlər onları xilas edəcək tövhiddən olan bu hissəni həyata keçirtmişlər. Bu da, lə iləhə illəllah kəlməsinin mənası, Bir olan Allaha ibadət etmək və Allahdan başqa ibadət olunan bütün məbudlardan uzaqlaşmaq, onlara ibadəti tərk etməkdir. Dinin əsli deyildikdə, məhz bu qəsd edilir. Dinin bu əsli haqda cahil qalan yaxud onu pozan şəxs, tövhid və İslam vəsfini itirmiş olur.

Yuxarıda qeyd edilən sözlərdən bir neçə məsələ bəlli olur:

Bəlli olur ki, dinin üsulları deyildikdə, etiqad edilməsi vacib olan şeylər qəsd edilir və bu anlama bir çox şeylər daxildir. Habelə dinin üsullarında cahil qalan yaxud təvil edən şəxsin üzürsüz olduğunu iddia etmək də, batil sözdür. Çünki məsələdən anlayışı olmayan bir çox cahil insanlar təkfir mövzusuna bu yöndən

yanaşırlar. İnsan yalnız tövhidin özəyi olan, yalnız Allaha ibadəti pozacağı zaman dinin əsli fəsada uğrayacaq və insan İslam vəsfini itirəcək. Ancaq daha geniş məfhumda gələn usul əd-dində insanın İslamda yeni olması yaxud digər səbəbdən dolayı üzürlü olması mümkündür. Bu səbəbdən müəyyən sözləri ixtira edib: Bu üsulud-dindir, kim ona füruud-din desə kafir olur yaxud füruud-dində üzür var üsulud-dində üzr yoxdur,-demək batil yanaşmadır və bütün bu sözlər mötəzililərdən olan bidət və həva əhlinin sözləridir.

Şeyxul-İslam İbn Teymiyyə buyurur:

من شأن أهل البدع أنهم يبتدعون أقوالا يجعلونها واجبة في الدين، بل يجعلونها من الإيمان الذي لا بد منه، و يكفرون من خالفهم فيها

“Bidət əhlinin adətidir ki, onlar özlərindən sözlər ixtira edib onu dində vacib edirlər. Üstəlik onu labüd olan imandan edirlər, daha sonra onlara həmin məsələdə müxalif olanları təkfir edirlər.” (Minhəcus sünnə:5/95)

Şeyxul-İslam İbn Teymiyyə (əl-Fətəva:23/346-347) özlərindən dinin əsilləri və furuatlarını ixtira edib onun əsasında təkfir hökmünü quran mötəzililərə rəddiyəsində buyurur:

أما التفريق بين نوع تسميته مسائل الأصول و بين نوع آخر و تسميته مسائل الفروع فهذا الفرق ليس له أصل لا عن الصحابة و لا عن التابعين لهم بإحسان و لا أئمة الإسلام و إنما هو مأخوذ عن المعتزلة و أمثالهم من أهل البدع و عنهم تلقاه من ذكره من الفقهاء في كتبهم و هو تفريق متناقض فإنه يقال لمن فرق بين النوعين: ما حد المسائل الأصول التي يكفر المخطئ فيها؟ فإن قال: مسائل الأصول هي مسائل الاعتقاد و مسائل الفروع هي مسائل العمل، قيل له: فتنازع الناس في محمد صلى الله عليه و سلم، هل رأى ربه أم لا؟...

“Üsul məsələləri adlandırılan növ ilə furu adlandırılan digər növ arasında fərq qoymaq məsələsinə gəldikdə, bu ayırım səhabələrdən, onlara gözəl şəkildə tabe olanlardan və İslamın imamlarından varid olmayıb. Bu yalnız mötəzililər və onlar mislində olan bidət əhlindən mənimsənilmiş bir şeydir. Onlardan isə öz kitablarında bunu qeyd edən bəzi fəqihlər bu sözü almışlar. Əslində isə bu ziddiyətli ayırımdır. Çünki bu sözləri deyən adama sual olunacaq: Xəta edəni küfrə salan üsul məsələlərin hüdudları nədir? Əgər desə ki, üsul məsələləri etiqadı məsələlərdir, furu məsələləri isə əməli məsələlərdir, bu zaman ona

deyiləcək: İnsanlar (səhabələr) Muhamməddin –salləllahu aleyhi və səlləm- öz Rəbbini görüb görməməsi məsələsində ixtilaf etmişlər…”

Daha sonra Şeyxul-İslam digər etiqadı məsələləri misal olaraq gətirir və həmin məsələlərdə insanların bir-birini təkfir etmədiklərinə işarə edir.

Həmçinin Şeyxul-İslam (Məcmu əl-fətəva:23/346) buyurur:

هكذا الأقوال التي يكفر قائلها: قد يكون الرجل لم تبلغه النصوص الموجبة لمعرفة الحق، و قد تكون عنده و لم تثبت عنده أو لم يتمكن من فهمها، وقد يكون قد عرضت له شبهات يعذره الله بها فمن كان من المؤمنين مجتهدا في طلب الحق و أخطأ فإن الله يغفر له خطأه كائنا ما كان سواء كان في المسائل النظرية أو العملية، هذا الذي عليه أصحاب النبي صلي الله عليه و سلم و جماهير أئمة الإسلام و ما قسموا المسائل إلي: مسائل أصول يكفر بإنكارها، و مسائل فروع لا يكفر بإنكارها

“Beləcə insanın deməsilə küfrə düşəcəyi sözlər: Bəzən insana haqqı bilməyi vacib edən nasslar çatmır, bəzən isə ona çatır lakin ona görə həmin nasslar sabit olmur, yaxud onu anlamaq gücündə olmur, bəzən isə şübhələrdən təsirlənir Allah isə onu üzürlü edir. Bu səbəbdən, Allah, möminlərdən haqqı axtarmaqda səy göstərib xəta edənin xətasını bağışlayır. Həmin məsələ nəzəri yaxud əməli məsələ olsun fərq etmir. Peyğəmbərin –salləllahu aleyhi və səlləm- səhabələri, həmçinin İslam əhlinin əksəriyyəti bu yol üzərə olublar və onlar məsələləri, inkar ediləcəyi zaman insanın kafir olacağı üsul məsələlərinə və inkar ediləcəyi zaman kafir olmayacağı furu məsələlərinə bölməyiblər.”

Şeyxul-İslamın sözlərindən anlaşılır ki, insanları təkfir etmək üçün məsələləri üsul və furuata bölmək və bunun üsul olması səbəbdən onu inkar edənin kafir olacağını, digərinin isə furu olması səbəbdən onu inkar edənin kafir olmayacağını demək mötəzililərin və onlar mislində həva və zəlalət əhlinin sözüdür. Halbuki Şeyxul-İslam dində üsul və furunun olmasını inkar etmir. O sadəcə bəzi sapmış firqələrin bunun üzərinə təkfir hökmünü qurmalarını rədd edir və bunun sələfin yolundan xaric bir bidət olduğunu qeyd edir.

Misal olaraq qədərə və onun bütün mərtəbələrinə iman etmək və bunu etiqad etmək etiqad edilməsi vacib olan məsələdir və dinin üsullarına daxil olan bir şeydir. Çünki qədərə iman gətirmək imanın şərtlərindəndir. Lakin heç kəs

qədərə imanın insanı İslama daxil edən dinin əsli olduğunu deməyib və onun bəzi məqamları haqda cahil qalan şəxsin kafir olduğunu dilə gətirməyib.

İbn Abdul-Bərr (ət-Təmhid:18/46-47) kəlamçılara rəddiyəsində buyurur:

إن بعض الصحابة سألوا الرسول صلي الله عليه و سلم مستفهمين عن القدر فلم يكونوا بسؤالهم عن ذلك كافرين ولو كان لا يسعهم جهله لعلمهم ذلك مع الشهادتين و أخذه في حين إسلامهم و لجعله عمودا سادسا للإسلام، فتدبر واستعن بالله

“Bəzi səhabələr Allah Rəsuluna –salləllahu aleyhi və səlləm- qədər haqqında sual vermişlər, ancaq onlar bu haqda sual verməklə kafir olmamışlar. Əgər bu haqda cahil qalmaq yolverilməz olsaydı, Allah Rəsulu bunu şəhadət ilə birgə onlara öyrədər və onlar İslama gəldikləri zaman bunu onlardan tələb edər və bunu İslamın altıncı dayağı edərdi. Bu haqda düşün və Allahdan yardım dilə!”

Həmçinin heç bir alim Allahın adları və sifətləri haqda olan elmin, dinin furuatlarından olduğunu deməyib. Bunu yalnız ağzından çıxan sözün fərqinə varmayan cahillər deyir. Buna rəğmən alimlər adlar və sifətlərdə təvil edənin üzürlü ola biləcəyini demişlər.

Təkfir məsələsinə gəldikdə isə, irəlidə isbat ediləcəyi kimi təkfir şər`i hökmdür və lə iləhə illəllah tövhid kəlməsinin tələb etdiyi bir vacibdir. Lakin təkfirin də müxtəlif növləri və dərəcələri olduğu üçün, bu haqda elm əhli danışmışlar. Təkfirin dinin üsullarından yoxsa furuatlarından olmasını araşdırmaq isə faydasız bir məşğuliyyətdir. Bu kəlmənin şəriətdə gələn hökm olmasını və tövhid kəlməsinin insandan tələb etdiyi lazımlardan biri olmasını bilmək kifayətdir.

Ancaq ğulatlar müşriklərin təkfirini, ələxsus İslama mənsub olan müşriklərin təkfirini (çünki əsli kafirlərin küfrünə dair ümumiyyətlə ixtilaf edən olmayıb) dinin əslinə daxil olan ərkanlarından etmişlər. Onlara görə əgər biri şübhədən və ya təvildən dolayı onların küfründə şəkk etsə yaxud dayansa, kafir olacaq. Çünki beləsi dinin əslini pozmuşdur. Bunlara görə həmin adam İslamın və tövhidin həqiqəti haqda cahil qaldığına, tağuta küfr etmədiyinə, qəti icmanı rədd etdiyinə və şirki İslam adlandırdığına görə kafir olur. Bu şeylərə əsasən cəhaləti üzr görən şəxsləri mütləq olaraq təkfir etmişlər. Lakin bu sözün batilliyi zəruri bilinən bir məsələdir.

Uca Allah ixtilaf və çəkişmə zamanı Quran və Sünnəyə dönməyi əmr edir. Buyurur:

فإن تنازعتم فى شيء فردوه إلى الله و الرسول إن كنتم تؤمنون بالله و اليوم الآخر ذلك خير و أحسن تأويلا

*"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə iman edirsizsə, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."* (Ən-Nisə:59)

Uca Allah Öz Kitabında dinin əsli olan şəhdət kəlməsini açıq şəkildə bəyan etmiş və onu ən avam insanın belə qavrayacağı aydın şəkildə açıqlamışdır. İnsanların düşüncə və anlayış tərzinin müxtəlfliyinə rəğmən Allahın Kitabında və Peyğəmbərin –salləllahu aleyhi və səlləm- Sünnəsində dinin əsli açıq-aydın gəlmişdir. Çünki qeyd edildiyi kimi bu, insanı İslama daxil edən və insanın üzərinə vacib olan bir şeydir.

Qurani Kərimdə və Sünnədə dinin əsli:

Uca Allah Qurani Kərimin bir çox ayəsində dinin əslini bəyan edərək buyurur:

و ما أمروا إلا ليعبدوا إلها واحدا لا إله إلا هو سبحنه عما يشركون

*"Halbuki onlara ancaq tək olan ilaha ibadət etmək əmr olunmuşdu."* (ət-Tövbə:31)

و ما أمروا إلا ليعبدوا الله مخلصين له الدين حنفاء ويقيموا الصلاة ويؤتوا الزكاة و ذلك دين القيمة

*"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!"* (əl-Beyyinə:5)

و لقد بعثنا في كل أمة رسولا أن عبدوا الله واجتنبوا الطاغوت

*"Biz hər ümmətə: Allaha ibadət edib tağutdan kənar durun!-deyə elçi göndərdik."* (ən-Nəhl: 36)

Uca Allah digər bir ayədə tağutdan kənar durmağın mənasını açıqlayıb buyurur:

والذين اجتنبوا الطاغوت أن يعبدوها و أنابوا إلى الله لهم البشرى

*"Tağuta ibadət etməkdən kənar durub Allaha üz tutanlara müjdə vardır."* (əz-Zumər:17)

و ما أرسلنا من قبلك من رسول إلا نوحى إليه أنه لا إله إلا أنا فاعبدون

*"Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: Məndən başqa heç bir məbud yoxdur. Mənə ibadət edin!-deyə vəhy etməyək."*

Həmçinin Uca Allah xəbər verir ki, hər peyğəmbər öz ümmətinə göndərildiyi zaman ilk olaraq onlara bu sözləri deyirdi:

اعبدوا الله ما لكم من إله غيره

*"Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur."*

Səhih Muslimdə gələn hədisdə Allah Rəsulu –salləllahu aleyhi və səlləm- Qureyşi tövhidə çağırıb belə deyirdi:

قولوا لا إله إلا الله تفلحوا

"Lə iləhə illəllah deyin ki, nicat tapasınız."

Həmçinin Muazın hədisində Allah Rəsulu –salləllahu aleyhi və səlləm- buyurur:

حق الله على عباده أن يعبدوه و لا يشركوا به شيئا

"Allahın qulları üzərində olan haqqı, Ona ibadət edib heç bir şeyi Ona şərik qoşmamalarıdır." Hədisi Buxari rəvayət edib.

Abdur-Rəhman ibn Həsən (Qurratu uyunil muvahhidin) kitabında həmin hədisi şərh edərkən demişdir:

وفيه دليل على أن توحيد العبادة هو أول واجب لأنه أساس الملة و أصل الاسلام

"Bu hədis, ibadət tövhidinin ilk vacib olmasına dəlalət edir. Çünki o, dinin əsası və İslamın əslidir."

İbn Rəcəb “Fəthul bəri” əsərində səhih isnadla İbn Sirinin belə dediyini rəvayət edir:

نبئت أن أبا بكر و عمر كانا يعلمان الناس الاسلام: تعبد الله و لا تشرك له شيئا

“Mənə xəbər verildi ki, Əbu Bəkr və Ömər insanlara İslamı öyrədib belə deyərdilər: Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşma!”

Həmçinin Allah Rəsulu –salləllahu aleyhi və səlləm- Muazı Yəmənə yolladığı zaman belə demişdir:

إنك تقدم علي قوم من أهل الكتاب، فليكن أول ما تدعوهم إلى أن يوحدوا الله تعالي، و في رواية: إلي عبادة الله

“Sən Kitab əhlindən olan insanların yanına gedirsən. Onları dəvət edəcəyin ilk şey, Allahı təkləşdirmələri, bir rəvayətdə; Allaha ibadət etmələri olsun!”

Aydın olur ki, dinin əsli Allaha ibadət etmək və Ondan başqa olan məbudlardan bəraət etməkdir və həmin kəlmə bir-başa təkfiri özündə şamil etmir.

Lakin ğulatlar dinin əslini bəyan edən bu açıq-aydın nassların önündə aciz qaldıqları zaman bidət və həva əhlinin üslubuna əl atıb deyirlər ki, Allah Rəsulu –salləllahu aleyhi və səlləm- insanları ilə iləhə illəllah kəlməsinə dəvət etdiyi zaman əlavə olaraq təkfiri qeyd etməyə lüzum qalmamışdı. Çünki onlar lə iləhə illəllah kəlməsindən bunu anlayırdılar. Çünki həmin dövrdə olan ərəblər bəlağət və fəsahət sahibləri olmuşlar. Yəni güya həmin dövrdə olan insanlar bu kəlmənin ifadə etdiyi bütün mənaları və ondan şaxələnən məsələləri anlamışlar. Ancaq iman gətirib mücməl imana sahib olan avam müsəlmanlar bundan qafil qalmışlar.

Əslində isə onların bu məsələdə ərəblərin fəsahətini və bəlağətini dəlil gətirib şəhadət kəlməsinin müşriklərin təkfir edilməsini özündə şamil etdiyini iddia etmələri mötəzililər və digər kəlam əhlinin Allahın sifətlərini təhrif etmələri növündən olan bir üslubdur. Onlar da, ərəblərin fəsahəti, bəlağəti və biliyini dəlil gətirib iddia edirdilər ki, səhabələrin Allahın sifətləri haqda sualı tərk etmələri, onların həmin kəlmələrin batini mənalarını anlamalarından irəli gəlmişdir. Buna əsaslanaraq da, Allahın kəlamını təvil edib mənasını təhrif etmişlər. Bu isə, heç şübhəsiz, nassları zahirindən çıxartmaq və onu yanlış məcraya yönəltməkdir.

Bunların həmin batil iddiasına cavab olaraq deyiləcək: Ərəblərin fəsahətini və bəlağətini dəlil gətirmək və onların lə iləhə illəllah kəlməsini sizin anladığınız kimi anladıqlarını iddia etmək əsassızdır. Çünki həmin dövrdə bir çox əcəmlər (qeyri-ərəblər) İslamı qəbul etmiş və səhabələr onlara İslam dinini öyrətmişlər. Lakin İslama gəldikləri vaxtda onlara müşrikləri təkfir etmək adlı şərti qoymamışlar. Onlar sadəcə lə iləhə illəllah kəlməsini, Allahdan başqasına edilən ibadəti inkar etməyi və ibadəti Allaha isbat etməyi öyrədirdilər. Həmin insanlar şəhadət kəlməsini öyrəndikdə səhabələr onlara müsəlman hökmü verirdilər. Ancaq əgər insan İslama girdiyi zaman ondan şəhadət kəlməsindən əlavə digər şeylər tələb olunsaydı, Allah Rəsulu və səhabələr İslama girən insanlardan mütləq onu tələb edərdilər. Üstəlik deyiləcək ki, bir sıra səhabələr ərəblərdən olmamışlar. Onların içində, Salman əl-Fərisi və Nəcaşi kimi qeyri-ərəblər olmuşdur. Onlar isə xalis ərəblərin bəyanına daha ehtiyaclı olmuşlar. Buna rəğmən nə Peyğəmbər –salləllahu aleyhi və səlləm- nə də səhabələr öz dəvətlərində bu sözlərə heç bir şeyi əlavə etmirdilər: Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!

Qeyd olunan bütün nasslar, Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmamaq əmri ilə gəlmişdir. Allah, Onun Elçisi və səhabələr İslam hökmünü isbat etmək üçün bunun üzərinə heç bir şeyi əlavə etməmişlər. Habelə heç vaxt rast gəlinməyib ki, Allah Rəsulu yaxud onun səhabələri, və ya tabiinlər kafirləri İslama dəvət etdikləri zaman belə desinlər: Allaha ibadət edin, Ona heç bir şeyi şərik qoşmayın, müşrikləri təkfir edin yaxud onlardan İslam adını inkar edin yaxud onların İbrahimin millətindən kənar olduqlarını deyin, və yaxud da dəlilsiz-sübutsuz ixtira edilən digər sözlər.

Əslində bu sözlər yuxarıda qeyd edilən nassların naqis olmasını və dinin əslini bəyan etmək üçün dolğun izahı ortaya qoymamasını gərəkdirir. Lakin Allahın Kitabı və Peyğəmbərin Sünnəsi bundan münəzzəhdir və Kitab və Sünnə hər bir şeyi dolğun və müfəssəl şəkildə açıqlayıb.

Ancaq qeyd edildiyi kimi bu sözlər, kəlam əhlindən olan mötəzililər və onların yolundan olanların qoyduları üsullardır. Onlar öz batillərini isbat etmək istədikləri zaman bu cür üslublara əl atırlar. Buna görə də, məşhur maliki alimi İbn Abdul-Bərr –rahiməhullah- kəlamçıların qoyduqları bu batil qaydalara rəddiyə verərək buyurur:

إن بعض الصحابة سألوا الرسول صلي الله عليه و سلم مستفهمين عن القدر فلم يكونوا بسؤالهم عن ذلك كافرين ولو كان لا يسعهم جهله لعلمهم ذلك مع الشهادتين و أخذه في حين إسلامهم و لجعله عمودا سادسا للإسلام، فتدبر واستعن بالله

"Bəzi səhabələr Allah Rəsuluna –salləllahu aleyhi və səlləm- qədər haqqında sual vermişlər, ancaq onlar bu haqda sual verməklə kafir olmamışlar. Əgər bu haqda cahil qalmaq yolverilməz olsaydı, Allah Rəsulu bunu şəhadət ilə birgə onlara öyrədər və onlar İslama gəldikləri zaman bunu onlardan tələb edər və bunu İslamın altıncı dayağı edərdi. Bu haqda düşün və Allahdan yardım dilə!" (ət-Təmhid:18/46-47)

İndi isə imamların dinin əslini bəyan edən sözlərinə nəzər salaq:

Şeyxul-İslam İbn Teymiyyə (məcmu əl-fətəva:3/397) dinin əslini bəyan edərək buyurur:

عبادة الله وحده هي أصل الدين، و هو التوحيد الذي بعث الله به الرسل، و أنزل به الكتب فقال تعالي: واسأل من أرسلنا من قبلك من رسلنا أجعلنا من دون الرحمن آلهة يعبدون

"Dinin əsli, Bir olan Allaha ibadət etməkdir. O tövhiddir ki, Allah elçiləri ondan ötrü yollamış, kitabları da ondan ötrü endirmişdir. Uca Allah buyurur: *"Səndən əvvəl göndərdiyimiz elçilərdən soruş: Biz Mərhəmətli Allahdan başqa ibadət ediləsi məbudlarmı icad etdik?"*

Həmçinin Şeyxul-İslam (məcmu əl-fətəva:15/438) buyurur:

أصل الدين هو عبادة الله الذي أصله الحب و الإنابة و الإعراض عما سواه و هو الفطرة التي فطر عليها الناس

"Dinin əsli, Allaha ibadət etməkdir. Onun özəyi isə sevgi, Allaha üz tutma və Ondan başqasından üz çevirmədir. İnsanların onun üzərə yaradıldığı fitrət məhz budur."

Habelə Şeyxul-İslam (məcmu əl-fətəva:10/15) buyurur:

و لهذا كان رأس الاسلام شهادة أن لا إله إلا الله، و هي متضمنة عبادة الله وحده، و ترك عبادة ما سواه، و هو الاسلام العام الذي لا يقبل الله من الأولين و الآخرين دينا سواه، كما قال تعالي: (و من يبتغ غير الاسلام دينا فلن يقبل منه و هو في الآخرة من الخاسرين)، و قال تعالي: (شهد الله أنه لا إله إلا هو و الملائكة و أولو العلم

قائما بالقسط لا إله إلا هو العزيز الحكيم، إن الدين عند الله الاسلام)، و هذا الذي ذكرناه مما يبين أن أصل الدين في الحقيقة هو الأمور الباطنة من العلوم و الأعمال، و أن الأعمال الظاهرة لا تنفع بدونا

"Buna görə də İslamın əsası lə ilәhә illәllah şəhadəti olmuşdur. O isə tək olan Allaha ibadət etməyi və Ondan başqasına edilən ibadəti tərk etməyi özündə şamil edir. Bu isə o ümumi İslamdır ki, Allah nə əvvəlkilərdən nə də ki, sonrakilərdən ondan qeyrisini qəbul etməz. Uca Allah buyurur: *"İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar."* Habelə buyurur: *"Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər. Allah əbədi olaraq ədalətli olmaqdadır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir. Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!"* Bizim bu qeyd etdiyimiz şeylər bəyan edir ki, əslində dinin əsli, elmlər və əməllərdən ibarət olan daxili işlərdir və onsuz zahiri əməllər heç bir fayda vermir."

Həmçinin Şeyxul-İslam İbn Teymiyyə (əl-Fətəva:1/92) buyurur:

إن أصل الدين هو التوحيد و ضده الشرك، فقال: (قل أمر ربى بالقسط و أقيموا وجوهكم عند كل مسجد وادعوه مخلصين له الدين) أمر مع القسط بالتوحيد الذي هو عبادة الله وحده لا شريك له، و هذا أصل الدين، و ضده هو الذنب الذي لا يغفر، قال تعالي: ( إن الله لا يغفر أن يشرك به و يغفر ما دون ذلك لمن يشاء) و هو الدين الذي أمر الله به جميع الرسل، و أرسلهم به إلي جميع الأمم.

"Dinin əsli, tövhiddir. Onun ziddi isə şirkdir. Uca Allah buyurur: *"De: Rəbbim ədalətli olmağı əmr etdi. Hər səcdə etdiyiniz yerdə üzünüzü Ona tutun və Allaha-dini məhz Ona məxsus edərək dua edin."* Allah ədalət ilə birgə tövhidi əmr etdi. O isə tək və şəriksiz olan Allaha ibadət etməkdir. Bu da, dinin əslidir. Onun ziddi isə bağışlanmayan günahdır. Uca Allah buyurur: *"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar."* O da, Allahın bütün peyğəmbərlərə əmr etdiyi və onunla bütün ümmətlərə göndərdiyi dindir."

Şeyxul-İslam açıq şəkildə qeyd edir ki, şirk dinin əslinə zidd olan şeydir. Buyurur: *"Bu da, dinin əslidir. Onun ziddi isə bağışlanmayan günahdır."* Uca Allaha ibadət etmək və Allahdan başqa ibadət olunan hər məbuddan bəraət etmək dinin əslidir.

Şeyxul-İslam İbn Teymiyyə buyurur:

قد علم بالاضطرار من دين الرسول صلى الله عليه و سلم و اتفقت عليه الأمة أن أصل دين الاسلام و أول ما يؤمر به الخلق شهادة أن لا إلا الله ة أن محمد رسول الله

“Allah Rəsulunun -salləllahu aleyhi və səlləm- dinindən zəruri bilinmişdir, habelə ümmət də yekdil olmuşlar ki, İslam dininin əsli və məxluqatın ilk əmr olunduqları şey, Allahdan başqa ibadətə layiq olan məbudun olmamasına və Muhammədin Allahın Elçisi olmasına şahidlik etmələridir.” (Bu sözləri Abdur-Rəhman ibn Həsən Fəthul məcid kitabında Şeyxul-İslamdan nəql edir)

Şeyxul-İslam İbn Teymiyyə (Məcmu əl-fətəva7/371) buyurur:

فعامة الناس إذا أسلموا بعد كفر أو ولدوا على الاسلام و التزموا شرائعه، و كانوا من الطاعة لله و رسوله، فهم مسلمون و معهم أيمان مجمل، و لكن دخول حقيقة الإيمان إلى قلوبهم إنما يحصل شيئا فشيئا إن أعطاهم الله ذلك

“Əksər insanlar küfrdən sonra İslama gəlib yaxud İslam üzərə doğulub şəriətin buyuruqlarına riayət edəcəkləri, habelə Allaha və Onun Elçisinə itaət üzərə olacaqları zaman, onların mücməl (yığcam) imana sahib olan müsəlmanlar olmaları deyiləcək. Həqiqi imanın onların qəlblərinə girməsi isə, Allah onlara bunu verərsə yalnız tədricən baş verir.

İbn Hazm əl-Əndəlusi bu məsələ haqda buyurur:

وقال سائر أهل الإسلام كل من اعتقد بقلبه اعتقادا لا يشك فيه وقال بلسانه لا إله إلا الله وأن محمدا رسول الله وأن كل ما جاء به حق وبرئ من كل دين سوى دين محمد صلى الله عليه وسلم فإنه مسلم مؤمن ليس عليه غي ذلك

“Bütün İslam əhli demişlər: Hər kim şübhədən kənar şəkildə qəlbən etiqad edər və dili ilə lə iləhə illəllah muhammədun rasulullah, habelə onun gətirdiyi hər bir şeyin haqq olduğunu deyərsə və Muhammədin –salləllahu aleyhi və səlləm- dinindən savayı bütün dinlərdən uzaqlaşarsa, bu cür insan müsəlman və mömindir və onun öhdəsində digər heç bir şey yoxdur.”

Nəcd diyarının muftisi Abdullah Əbə Buteyn bu məsələyə Diməm ibn Sələbənin hədisini dəlil gətirərək buyurur:

إن العامي الذي لا يعرف الأدلة إذا كان يعتقد وحدانية الرب سبحانه ورسالة محمد صلى الله عليه وسلم ويؤمن بالبعث بعد الموت وبالجنة والنار وأن هذه الأمور الشركية التي تفعل عند هذه المشاهد باطلة وضلال فإذا كان يعتقد ذلك اعتقادا جازما لا شك فيه فهو مسلم وإن لم يترجم بالدليل لأن عامة المسلمين ولو لقنوا الدليل فإنهم لا يفهمون المعنى غالبا ثم نقل عن النووي في شرح مسلم عند حديث ضمام بن ثعلبه قال قال ابن الصلاح فيه دلالة لما ذهب إليه أئمة العلماء من أن العوام المقلدين مؤمنون وأنه يكتفى منهم بمجرد اعتقاد الحق جزما من غير شك وتزلزل خلافا لمن أنكر ذلك من المعتزلة لأنه قرر ضماما على ما اعتمد عليه في تعريف رسالته وصدقه ومجرد إخباره إياه بذلك ولم ينكر عليه ذلك و لا قال يجب عليك معرفة ذلك بالنظر في معجزاتي و الاستدلال بالأدلة القطعية

“Dəlilləri bilməyən avam birisi, Uca Rəbbin təkliyini və Muhammədin -salləllahu aleyhi və səlləm- peyğəmbərliyini etiqad edəcəyi, habelə ölümdən sonra diriliş gününə, cənnətə və cəhənnəmə iman edəcəyi və həmin pirlərdə edilən bu şirk əməllərin batil və zəlalət olduğuna qəti əminliklə etiqad edəcəyi zaman, dəlili bilməsə belə heç şübhəsik ki, həmin insan müsəlmandır. Çünki əksər müsəlmanlar, dəlili dildə təkrar etsələr də, onlar çox vaxtı onun mənasını anlamırlar. Daha sonra Nəvəvidən Musimin şərhinə dair Dıməm ibn Sələbənin hədisi nəql edilir. O dedi: İbn Salah demişdir: Həmin hədis, bunu inkar edən mötəzililərdən fərqli olaraq elm əhlindən olan imamların seçdikləri görüşə dəlalət edir ki, təqlidçi avamlar mömindirlər və onlara şəkksiz və tərəddüdsüz mücərrəd olaraq qəti şəkildə haqqı etiqad etmələri kifayət edir. Çünki Allah Rəsulu risalətini, doğruluğunu və adicə bunu ona xəbər verməsini anlatmaq məsələsində Dıməmın etimad etdiyi şeyləri iqrar etdi. Allah Rəsulu  ona irad tutmadı və demədi ki, sənə mənim möcüzələrimə nəzər yetirməklə və qəti dəlillərə əsaslanmaqla bu şeyləri bilmək vacibdir.” (əd-Durarus səniyyə: 10/108-109)

Abdul-Lətif ibn Abdur-Rəhman ibn Həsən demişdir:

إن أصل الإسلام و قاعدته هي: عبادة الله وحده لا شريك لـه، و إفراده بالقصد و الطلب، و إن توحيد الربوبية و اعتقاد الفاعلية له تعالي، لا يكفي في السعادة و النجاة، و لا يكون به المرء مسلما حتى يعبد الله وحده، و يتبرأ مما سواه من الأنداد و الآلهة

“Şübhəsiz ki, İslamın əsli və təməli: Tək və şəriksiz Allaha ibadət etmək və Onu yönəlmə və tələbdə təkləşdirməkdir. Eyni zamanda Rübubiyyət tövhidi və

Uca Allahın hər bir şeyi idarə etməsini etiqad etmək səadət və qurtuluş üçün yetərli deyil. Çünki insan yalnız tək olan Allaha ibadət etməklə və Ondan başqa olan məbudlar və ilahlardan uzaqlaşmaqla müsəlman olur.”

Kim Allahdan başqa ibadət olunan hər bir şeydən ibadəti inkar edib istək, əməl, söz və elm üzərə ibadəti yalnız Allaha isbat etsə dinin əslini həyata keçirtmiş olacaq. Buna əlavə gələn şeylər isə tövhidin vacibləri və ya kamilliyi olacaq.

Elə isə, təkfirin dinin əsli olmadığını demək, təkfirin vacib olmadığını yaxud gərəksiz olduğunu yaxud insanın üzərində təkfir adlı bir öhdəçiliyin olmadığını ifadə edirmi?

Təbii ki, bu yanlış düşüncədir və belə düşünən insan İslam dinini anlamamış və məsələnin mahiyyətini dərk etməmişdir. Heç şübhəsiz ki, insan lə iləhə illəllah kəlməsini gətirəcəyi zaman, həmin kəlmə ondan bir sıra şeyləri tələb edəcək. İnsan həmin kəlmənin tələblərinə riayət etməsə yaxud ona riayət etməkdən imtina etsə, həmin kəlmə ona heç bir fayda verməyəcək.

Lakin ğulatlar müşriklərin təkfirini ağıl və fitrətə bağlamış və bunu dinin əsli etmişlər. Daha sonra bunun üzərinə cəhaləti üzr görən şəxsin təkfir edilməsini qurmuşlar. Çünki beləsi onlara görə dinin əslini pozan kafirdir.

Əslində ağıl və fitrətlə bilinən və dərk edilən yalnız Uca Allahın tövhidi və məhz Onun ibadətə layiq olmasıdır. Çünki insanın ağlı, mövcud olan bütün məxluqatın kamillik vəsflərinə sahib olan bir yaradan tərəfindən icad edilməsini dərk edir. Bu cür vəsflərə malik olan yaradan isə layiqdir ki, bütün məxluqat Onun əzəməti və cəmalı qarşısında alçalıb boyun əysinlər və Onun iradəsinə təslim olsunlar. Bu səbəbdən elm əhli qeyd etmişlər ki, heç kəs Allahın vəhdaniyyəti haqda cahil qalmaqda üzürlü deyil. Çünki ağıl müstəqil şəkildə onu tanıyır. Ağıl və fitrətlə bilinən və dərk edilən dinin əsli məhz budur. Hətta elçilərin risalətləri və onların çağırışından kənar qalmış həniflər belə Allahın vəhdaniyyətini, təkliyini dərk edib Allahın qarşısında təzəllül etmiş və Ona boyun əyməklə dinin əslini həyata keçirtmişlər.

Əbu Yusuf Əbu Hənifənin belə dediyini nəql edir:

لا عذر لأحد من الخلق في جهله معرفة خالقه لأن الواجب على جميع الخلق معرفة الرب سبحانه و تعالى و توحيده لما يرى من خلق السماوات و الأرض و خلق نفسه و سائر ما خلق الله سبحانه و تعالى، فأما الفرائض فمن لم يعلمها و لم تبلغه فإن هذا لم تقم عليه حجة حكمية

“Məxluqatdan heç biri öz Yaradanı haqda cahil qalmaqda üzürlü deyil. Bütün məxluqata Uca Rəbbi və Onun təkliyini bilməsi vacibdir. Çünki o göylərin və yerin, habelə özünün və Uca Allahın yaratdığı digər məxluqatların yaradılışını görür. Fərzlərə gəldikdə isə, əgər biri onu bilmirsə və ona həmin fərzlər çatmayıbsa, beləsinin üzərindən hökmü hüccət[1] qalxmamışdır.” (Bədəius sanəi:7/132)

Ağıl Allahın təkliyini bilir və Allaha ibadət etməyin, Onun qarşısında alçalıb boyun əyməyin yaxşı olduğunu və Ondan qeyrisinin önündə alçalıb boyun əyməyin çirkin olduğunu dərk edir.

İbn əl-Qayyim “Mədəricus səlikin” kitabında buyurur:

أن قبح عبادة غير الله تعالى مستقر في العقول و الفطر، و السمع نبه العقول و أرشدها إلى معرفة ما أودع فيها من قبح ذلك

“Həqiqətən, Allahdan qeyrisinə edilən ibadətin çirkinliyi ağıllarda və fitrətlərdə yerləşmişdir. Eşidilən şeylər isə ağılı, onda yerləşdirilən şeyin çirkinliyini bilməyə istiqamətləndirir və yönəldir.”

Lakin müşriklərin təkfiri şər`i hökmdür və onun ağılla yaxud fitrətlə heç bir bağlılığı yoxdur. Çünki təkfir Allahın və Onun Elçisinin haqqıdır. Müsəlman yalnız Allahın və Onun Elçisinin təkfir etdiklərini təkfir edir. Ağılın və fitrətin isə buna heç bir müdaxiləsi yoxdur. Ağıl risalətdən öncə bir çox şeylərin pis və çirkin olduğunu dərk etsə belə bu, heç də təkfiri gərəkdirmir. Çünki insan risalətdən öncə şirkin çirkin və pis əməl olmasını bildiyi kimi həmçinin fahiş işlərin, zülmün

[1] Hüccət bir neçə növdən ibarətdir:
1)-Risali hüccət: Quranın gəlişi və elçilərin göndərilməsilə qalxmış olur.
2)-Hökmü hüccət: Uca Allahın Öz Kitabında bəyan etdiyi əhkamlardır. Bu əhkamlar da, vəsflərə şamil edilir. Zina edənin zinakar adlanması, oğurluq edənin oğru adlanması, küfr edənin kafir adlanması v.s.
3)-Həddi hüccət: Buna həmçinin “əl-istitəbə” deyilir. İnsanın tövbəyə çağırıldıqdan sonra ona şamil edilən həddlər və cəzalar. Hüccətin bu növünü qazilər və əmirlər qaldırır.

və təcavüzün çirkin və pis şeylər olduğunu bilir və dərk edir. Lakin buna rəğmən ona həmin şeylərin küfr olmasını etiqad etməsi gərəkli deyil.

Misal üçün, Nəcaşinin əhvalatında Cəfər ibn Əbu Talib ona belə demişdir: Ey hökmdar! Biz cahiliyyət dövründə bütlərə ibadət edir, leş yeyir, fahiş işlər görür və qonşularla pis rəftar edirdik.” (Hədisi İbn Xuzeymə rəvayət etmişdir.)

Hədisdən anlaşılır ki, ağıl şirki, təcavüzkarlığı, zülmü və fahiş işləri çirkin görür və sağlam fitrətlər bundan ikrah hissi duyur. Ağıl risalətdən öncə də, bütün bu şeyləri pis və çirkin görür. Lakin təkfir və onun dünya və axirətlə əlaqəli olan əhkamları tamamilə fərqlidir. Bütün bu əhkamlar yalnız vəhy vasitəsilə bilinir və həmin əhkamlar şəriətin qoyduğu əsaslar üzərinə qurulur. Çünki iman və küfr əhkamları yalnız vəhy vasitəsilə bilinir.

İbnul Vəzir əl-Yəməni (əl-Avasim minəl qavasim: 4/178) kitabında demişdir:

التكفير سمعي محض، لا مدخل للعقل فيه

“Təkfir xüsusi olaraq eşitmə yolu ilə bilinir. Ağılın ona heç bir müdaxiləsi yoxdur.”

Şeyxul-İslam İbn Teymiyyə (Məcmu əl-fətəva:19/21) buyurur:

فإن الكفر و الفسق أحكام شرعية، ليس ذلك من الأحكام التي سيتقل بها العقل

“Həqiqətən, küfr və fasiqlik şəri əhkamlardır və bu, ağılın müstəqil şəkildə dərk etdiyi əhkamlardan deyil.”

Şeyxul-İslam İbn Teymiyyə (Məcmu əl-fətəva:3/328) buyurur:

الإيمان و الكفر من الأحكام التي تثبت بالرسالة، و بالأدلة الشرعية يميز بين المؤمن و الكافر لا بمجرد الدلالة العقلية

“Mömini kafirdən ayıran iman və küfr, risalətlə və şər`i dəlillərlə sabit olan əhkamlardandır və adicə ağıl dəlalətilə sabit olmur.”

Həmçinin Şeyxul-İslam (Dər`u təarudil aqli van nəql:1/242) buyurur:

الكفر حكم شرعي ملتقى عن صاحب الشريعة، و العقل قد يعلم به صواب القول و خطؤه، و ليس كل ما كان خطأ في العقل، يكون كفرا في الشرع، كما أنه ليس كل ما كان صوابا في العقل تجب في الشرع

“Küfr şəriət sahibindən alınmış şər`i hökmdür. Ağıl isə bəzən sözün doğru və yanlış olduğunu bilir. Lakin ağılla yanlış sayılan heç də hər bir şey şəriətdə küfr olmur. Habelə heç də ağılla doğru sayılan hər bir şey şəriətdə vacib olmur.”

İbnul Qayyim “əl-Kəfiyə” adlı mənzuməsində buyurur:

الكفر حق الله ثم رسوله بالنص يثبت لا بقول فلان ... من كان رب العالمين و عبده قد كفراه فذاك ذو كفران

“Küfr (təkfir) Allahın və Onun Elçisinin haqqıdır və filankəsin sözü ilə deyil nass ilə sabit olur. Aləmlərin Rəbbi və Onun qulu (Muhamməd –salləllahu aleyhi və səlləm) kimi təkfir ediblərsə, kafir olan da məhz odur.”

Əl-İşbili (Təhzibul furuq:4/158-159) kitabında buyurur:

كون أمر ما كفرا أي أمر كان، ليس من الأمور العقلية بل هو من الأمور الوضعية الشرعية

“Hər hansı bir şeyin küfr olması, ağılla bilinən işlərdən deyil və yalnız şəriətin bərqərar etdiyi şeylərdəndir.”

Əl-Ğazali (əl-İqtisad fil itiqad:247) kitabında bu məsələyə toxunaraq buyurur:

إن هذه المسألة فقهية، أعني الحكم بتكفير من قال قولا و تعاطي فعلا، فتارة تكون معلومة بأدلة سمعية و تارة تكون مظنونة بالاجتهاد، و لا مجال لدليل العقل فيها البتة،

“Bu məsələ, yəni (küfr) sözü deyən və (küfr) feli işləyən şəxsə təkfir hökmünü çıxartmaq fiqhi məsələdir. Bəzi hallarda eşitmə yolu ilə sabit olan dəlillərlə bilinir, bəzən isə ictihad üzərində qurulan zənni dəlillərdən ibarət olur. Onda (təkfir hökmündə) ağıl dəlili üçün qətiyyən yer yoxdur.”

Şafii alimi Subki “əl-fətəva”da deyir:

التكفير حكم شرعي سببه جحد الربوبية أو الوحدانية أو الرسالة أو فعل حكم الشارع بأنه كفر و إن لم يكن جحدا

"Təkfir şər`i hökmdür. Onun səbəbi isə, rübubiyyəti yaxud vəhdaniyyəti yaxud risaləti inkar etməkdir yaxud inkar etməni ifadə etməsə də, şəriətin küfr olmasına hökm verdiyi şeyi etməkdir.”

Qadı İyad “əş-Şifə:2/282” kitabında buyurur:

بيان ما هو من المقالات كفر: اعلم أن تحقيق هذا الفصل و كشف اللبس فيه مورده الشرع، و لا مجال للعقل فيه

“Küfr olan sözlərin bəyan edilməsi: Bil ki, bu fəsilin təhqiq edilməsi və onda olan qaranlıq məqamların qaldırılması şəriət vasitəsilə olur. Ağılın bu işdə heç bir yeri yoxdur.”

Bəlli olur ki, təkfir şər`i hökmdür və onun ağıl və fitrətlə heç bir vəchlə bağlılığı yoxdur.

Məsələ haqda bilgini artırmaq üçün qeyd etmək lazımdır ki, dinin əsli, məhz mütabəqa və təzammün[2] dəlaləti yolu ilə lə iləhə illəllah kəlməsinin mənasıdır. Çünki qeyd edildiyi kimi o ağıl və fitrətlə dərk edilir.

Mütabəqa dəlaləti, lə iləhə illəllah kəlməsinin tam mənasıdır. Yəni Allahdan başqa haqq məbudun və rəbbin olmamasıdır. Bu halda həmin kəlmə Rübubiyyət və Üluhiyyət tövhidinə mütabəqa yönündən dəlalət edir. Yəni həmin söz, onun bütün mənalarına dəlalət edir. Həmin kəlmədə gələn İləh sözü, həm məbud (ibadət edilən) həm də rəbb (yaradan və kainatı idarə edən) kimi mənaları ifadə edir. Lakin misal olaraq, lə iləhə illəllah kəlməsinin Rübubiyyət tövhidinə dəlaləti təzammün yönündəndir. Çünki Rübubiyyət lə iləhə illəllah tövhid kəlməsində gələn mənanın bir hissəsidir. Yəni lə iləhə illəllah kəlməsinin Allahın Rəbb olmasına dəlalət etməsi, həmin kəlmənin onun mənasının bir hissəsinə dəlalət etməsidir. Bu da, Allahın Rəbb olmasına dəlalətidir. Həmin kəlmənin Üluhiyyətə dəlalət etməsi də, təzammün dəlaləti ilə olur. Çünki o da onun mənasının hamısı

[2] Üsul alimlərinə görə ləfzi dəlalət üç qismə bölünür:
1)-Mütabəqa dəlaləti: Hər hansı bir sözün, onun tam mənasına dəlalət etməsidir. Misal üçün insan sözünün danışa bilən canlıya dəlalət etməsidir.
2)-Təzammün dəlaləti: Hər hansı bir sözün, onun bəzi mənalarına dəlalət etməsidir. Misal üçün insan sözünün canlıya dəlalət etməsidir.
3)-İltizəm dəlaləti: Hər hansı sözün, onun mənasının lazımına dəlalət etməsidir. Lakin həmin məna bir-başa həmin sözdən anlaşılmır. Buna rəğmən həmin sözün lazımıdır. Misal üçün tavanın divara dəlalət etməsidir. Çünki divar olmasa tavanın olması da, mümkünsüz olur.

deyil bir hissəsidir. Onun bütün mənasına dəlalət edəcəyi zaman isə, mütabəqa dəlaləti deyiləcək.

Qurani Kərim lə iləhə illəllah kəlməsinin təzammün dəlaləti ilə mənasının Üluhiyyət olmasını bəyan edir. Uca Allah bunu bir sıra ayələrdə bəyan edir.

Allah Cəllə və Alə lə iləhə illəllahın daimi qalacaq kəlmə olduğunu bəyan edib buyurur:

و إذ قال إبراهيم لأبيه و قومه إننى براء مما تعبدون إلا الذي فطرنى فإنه سيهدين و فجعلها كلمة باقية في عقبه لعلهم يرجعون

*“Bir zaman İbrahim öz atasına və qövmünə demişdi: Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni yaradandan başqa! Şübhəsiz ki, O məni doğru yola yönəldəcəkdir. O bunu özündən sonra daimi qalacaq bir kəlmə etdi ki, bəlkə doğru yola qayıtsınlar.”* (əz-Zuxruf:26-28)

İbn Kəsir bu ayədə gələn daimi qalacaq bir kəlmə (kəlimətun bəqiyə) sözünün təfsirində buyurur:

يعني: لا إله إلا الله

“Yəni, lə iləhə illəllah kəlməsi.”

O bunu özündən sonra daimi qalacaq bir kəlmə etdi. Ondan sonra gələn peyğəmbərlər və elçilər arasında daimi qalcaq kəlmədir.

Habelə qırılmaq bilməyən möhkəm dəstəkdir. Uca Allah buyurur:

فمن يكفر بالطاغوت و يؤمن بالله فقد استمسك بالعروة الوثقى لا انفصام لها والله سميع عليم

*“Hər kəs tağuta küfr edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir.”* (əl-Bəqərə:256)

Səid ibn Cubeyr həmin ayənin təfsirində dedi: “Qırılmayan ən möhkəm dəstək isə, lə iləhə illəllah kəlməsidir.”

İbn Kəsir –rahiməhullah- təfsirində buyurur:

من خلع الأنداد و الأوثان، و ما يدعو إليه الشيطان، من عبادة كل ما يعبد من دون الله، و وحد الله فعبده وحده، و شهد أن لا إله إلا هو فقد استمسك بالعروة الوثقى، أي: فقد ثبت في أمره، و استقام على الطريقة المثلى، و الصراط المستقيم

“Hər kim şərikləri və məbudları, habelə Allahdan qeyrisinə ibadət olunan bütün şeytanın çağırdığı şeyləri tərk edər, habelə Allahı təkləşdirib yalnız Ona ibadət edər və Ondan başqa haqq məbudun olmadığına şahidlik edərsə, qırılmayan ən möhkəm dəstəkdən yapışmış olacaq. Yəni, öz işində sabitqədəm olacaq və ən gözəl və doğru yol üzərə qalacaq.”

Tabəri –rahiməhullah- öz təfsir kitabında buyrur:

فمن يجحد ربوبية كل معبود من دون الله، فيكفر به و يؤمن بالله، و يصدق بالله أنه إلهه و ربه و معبوده، فقد استمسك بالعروة الوثقى،

“Allahdan başqa ibadət olunan hər şeyin rübubiyyətini inkar edən, ona küfr edən və Allaha iman gətirən şəxs, habelə məhz Allahın onun ilahı, rəbbi və məbudu olduğunu təsdiq edən, qırılmayan ən möhkəm dəstəkdən yapışmış olur.”

Bu ayələrdən bəlli olur ki, Allahdan başqa ibadət olunan hər bir məbuddan uzaqlaşan və yalnız Allaha ibadət edən şəxs, tövhidin keçərli hissəsini həyata keçirdən muvahhiddir. Beləsi lə iləhə illəllah kəlməsinin mənasını anlamış, ona yəqin olmuş, onun dəlalətinə uyğun əməl etmiş, onun əmrinə təslim olmuş, xəbərini qəbul etmiş, niyyəti ilə onu təsdiq etmiş, ibadəti xalis olaraq Rəbbinə aid etmiş və tövhidi sevib şirkə nifrət etmişdir. Allahdan başqa ibadət olunan hər bir şeydən bəraət etmək və ibadəti tək olan Allaha yönəltmək dinin əsli deyilən anlamın hüdudlarıdır.

Lakin iltizam dəlaləti, mütabəqa və təzammün dəlalətdindən fərqli olaraq yekdilliklə əqli dəlalət sayılmışdır.

Sulləmul vusul kitabında gəlir:

دلالة اللفظ علي ما وافقه يدعونها دلالة المطابقة ،،، و جزئه تضمنا و ما لزم فهو التزام إن بعقل التزم

“Ləfzin ona uyğun gələnə dəlalət etməsinə mütabəqa dəlaləti deyirlər. Onun bir hissəsi təzammün, lazım olan isə ağılın lazım etdiyi iltizamdır.”

Təhqiqçi alimlərin qatında sabit olan qayadaya görə iltizam dəlalətini, yalnız bəyan və lazımın qeyd edilməsindən sonra ilzam etmək səhihdir. Çünki iltizam dəlaləti, əqli mənalardan ibarətdir və insanların ağılları onu dərk etməkdə fərqlənir. Bu çox geniş və çox əhatəli bir məfhumdur. Çünki onun lazımları və lazımlarının lazımları həddindən artıq çoxdur. Şeyxul-İslam İbn Teymiyyə bəyan etmişdir ki, dəlalətlər sırasında iltizəm dəlalətindən fərqli olaraq mötəbər olan mütabəqa və təzammün dəlalətidir. Çünki iltizam dəlalətinin mənaları hüdudsuzdur.

Şeyxul-İslam İbn Teymiyyə buyurur:

المعتبر في التعريفات دلالة المطابقة و التضمن، فأما دلالة الالتزام فلا لأن المدلول عليه فيها غير محدود و لا محصور، إذ لوازم الأشياء و لوازم لوازمها لا تنضبط و لا تنحصر، فيؤدي إلى أن يكون اللفظ الواحد على ما لا يتناهى من المعاني

“Təriflərdə mötəbər olan, mütabəqa və təzammün dəlalətidir. İltizam dəlaləti isə elə deyil. Çünki onun içində ona dəlalət edən mənalar hüdudsuzdur və çərçivəyə alınmır. Səbəb isə odur ki, müxtəlif şeylərin lazımlarını və lazımlarının lazımlarını tənzimləmək və çərçivəyə salmaq olmur. Bu isə bir ləfzin saysız-hesabsız mənaları ifadə etməsinə gətirib çıxardır.“

Buna əsasən əgər biz həmin iltizam dəlalətı haqda elmi lə iləhə illəllah kəlməsinin mənasını bilmək üçün şərt qoysaq, az bir qism istisna olmaqla heç bir kimsənin onun haqda bilgisi səhih olmaz.

Artıq qeyd olundu ki, İlah sözü təzammün yolu ilə məbud sözünə dəlalət edir. Bunun lazımı isə odur ki, İlah, ibadət edənin ibadəti ilə məbud olur. İbadət isə təzəllül və boyun əymədir. İbadət edən şəxsin məbudun önündə zəlil olması və alçalması labüddür. İnsan isə yalnız mənfəətin əldə edilməsinə istəkli yaxud zərərin toxunmasından qorxması səbəbdən alçalır və boyun əyir. Bu isə, məbudun mövcud, diri, zərər verən, fayda verən, ruzi verən, qüdrətli, eşidən və görən, habelə duaları qəbul edən olmasını lazım edir. Çünki məxluqatın rəğbət və qorxu hissi ilə ibadəti Ona yönəltmələri üçün Onun bu sifətlərlə səciyyələnməsi labüddür. Habelə məbudun öz quluna fayda verib ondan zərəri dəf etməsi üçün ona zərər verəcək və ona fayda verəcək şeyləri- istər keçmişdə istər hazırda istərsə də, gələcəkdə bilməsi labüddür. Bunun lazımı isə Onun mütləq əzəli

elmidir. Bu isə qədərin mərtəbələrinin birincisidir. Məgər qədərin bir-başa lə iləhə illəllah kəlməsinin mənasından olması deyilmişdir?

Habelə Allahın adları və sifətlərinin lə iləhə illəllah kəlməsinin mənası olması deyilmişdirmi? Əslində bu cür dəlalətlər luzum dəlalətindəndir. O şəriət baxımından qəsd edilən məna deyil. O sadəcə şər`i mənadan anlaşılan və lazımları vasitəsilə dərk edilən şeylərdir. Müşriklərdən bəraət etmək həmçinin bu qəbildən olan şeylərdir. Belə ki, Allahdan savayı hər məbuddan bəraət etmək, müşriklərdən bəraət etməyə, onlarla ədavət etməyə, onları təkfir etməyə və onlarla dostluq etməməyə dəlalət edir. Lakin qəti olaraq bilinir ki, tövhid kəlməsi bütün bu mənaları bir başa ifadə etmir. Tövhid kəlməsi Allahdan başqa haqq məbud yoxdur mənasını ifadə edir. Buna əlavə gələn mənalar isə iltizəm yolu ilə ona dəlalət edir. Bu isə mütabəqa və təzammün mənalarında lazım olan mənadır və qeyd edildiyi kimi o, geniş məfhumdur və insanların ağılları onu qavramaqda fərqlənirlər.

Misal üçün Əbu Bəkr zəkatı verməkdən imtina edən şəxslərə qarşı savaşmaq qərarına gəldi Ömər buna etiraz etdi və Allah Rəsulunun bu hədisini dəlil gətirdi: “Mən insanlara qarşı, onlar lə iləhə illəllah muhammədun rasulullah şəhadətini gətirənə qədər savaşmaqla əmr olundum. Bunu desələr, İslamın haqqı istisna olmaqla məndən öz qanlarını və mallarını qorumuş olacaqlar.” Əbu Bəkr isə bəyan etdi ki, zəkat lə iləhə illəllah kəlməsinin haqqıdır. Lə iləhə illəllahın hüquqları isə iltizam dəlaləti ilə bilinir. Çünki həmin hüquqlar, İlah sözündə gələn mənaların lazımlarındandır. Çünki məbudun ibadət olunması labüddür. Allahın qulları üzərində olan haqqı Ona ibadət edib Ona heç bir şeyi şərik qoşmamalarıdır. Bu üzdən ibadət, Allahın qulları üzərində olan haqqıdır. Ən əzəmətli ibadətlər isə zəkat kimi İslamın ərkanlarıdır. Habelə ibadətin təzəllül və boyun əymə keyfiyyəti üzərə olması lazımdır. Ərkanları yerinə yetirməkdən imtina etmək isə təzəllül və boyun əyməyə zidd gəlir. Bu səbəbdən zəkatı əda etməklə Allaha itaəti yerinə yetirmək, lə iləhə illəllahın lazımı mənası ilə bilinən lə iləhə illəllah kəlməsinin haqqıdır. Lakin bəzən iltizəm dəlaləti ilə bağlı olan bu cür məqamları müsəlman nəzərdən qaçırdır və ona həmin kəlmənin əfradları gizli qalır. Ancaq bu onun tövhid barədə cahil olmasını gərəkdirmir. Çünki bəzi hallarda insanın Allahı ibadətdə təkləşdirməklə və digər məbudlara ibadəti tərk etməklə mücməl imana sahib olması ona kifayət edir və onu cəhənnəm odundan xilas edir. Tövhid kəlməsinin iltizam yönlü dəlaləti isə geniş məfhumdur. Bu üzdən Ömərin tövhid elmi haqda cahil olması deyilməz, halbuki o ilk olaraq Əbu

Bəkrlə bu məsələdə mübahisə etmiş və düşünmüşdür ki, lə iləhə illəllah deyən şəxslərin bu hüquqları yerinə yetirməkdən imtina etmələri, onları mürtəd etmir və onlara qarşı savaşı vacib etmir. Əbu Bəkr isə onun əleyhinə eyni dəlili gətirib bəyan etdi ki, zəkat lə iləhə illəllah kəlməsinin haqqıdır. Nəhayət Ömər öz dediyi sözdən döndü və Əbu Bəkrin dediyi sözlərin doğru olmasını anladı. Hətta İbn Əbu Şeybə "əl-Musannəf" kitabında Ömərin belə deməsini nəql edir:

لو أطاعنا أبو بكر لكفرنا

"Əgər Əbu Bəkr bizim sözümüzə uysaydı, kafir olardıq."

Yəni əgər Əbu Bəkr bizim dediyimizlə razılaşsaydı, hamımız kafir olardıq.

Buna rəğmən Əbu Bəkr zəkatı verməkdən imtina edənlərin küfründə şübhə edənləri, kafirlərin küfründə şübhə etmək iddiası ilə tövbə etməyə çağırmadı. Çünki İslam ümmətinə mənsub olan şəxslərin təkfiri bəzi hallarda qapalı məsələlərdən olur və bu halda hüccətin qalxması və fəhm edilməsi gərəkli olur.

Habelə misal olaraq səhabələrin dindən çıxmış bəzi şəxslərin hökmünə dair öz aralarında ixtilafa düşmələrini göstərmək olar. Allah Rəsulu –salləllahu aleyhi və səlləm- onların arasında ikən həmin şəxslərdən ötrü mübahisə edənləri və onların kafir olmadıqlarını etiqad edənləri təkfir etmədi və onları təkfir etməyə əmr etmədi.

Uca Allah buyurur:

فما لكم في المنافقين فئتين والله أركسهم بما كسبوا أتريدون أن تهدوا من أضل الله و من يضلل الله فلن تجد له سبيلا

*"Sizə nə oldu ki, münafiqlər barəsində iki dəstəyə ayrıldınız? Halbuki Allah onları etdikləri əməllərə görə geriyə qaytarmışdır. Siz Allahın azdırdığı kimsəni doğru yola yönəltməkmi istəyirsiniz? Allahın azdırdığı kimsə üçün heç bir yol tapa bilməzsən."* (ən-Nisa:88)

İmam Tabəri bu ayənin təfsirində Allahın münafiqlər olaraq vəsf etdiyi şəxslərə dair alimlərin görüşlərini qeyd etdikdən sonra buyurur:

و أولى هذه الأقوال بالصواب في ذلك قول من قال: نزلت هذه الآية في اختلاف أصحاب رسول الله في قوم كانوا ارتدوا عن الإسلام بعد إسلامهم من أهل مكة

“Bu görüşlərin içində ən doğru olanı bunu deyənin sözləridir: Bu ayə, Allah Rəsulunun –salləllahu aleyhi və səlləm- səhabələrinin, İslama gəldikdən sonra İslamdan çıxıb irtidad etmiş Məkkə əhlindən olan bir tayfa haqda ixtilaf etmələri barədə nazil edilib.”

Həmin münafiqlər müşriklərə müsəlmanların əleyhinə yardım etmişlər. Məlumdur ki, bu əməl böyük küfrdür. Habelə müşrikləri dost tutmaq (təvəlli) İslamın pozan amildir. Bununla birgə bəzi səhabələr onların hökmündə şübhə etmişlər. Çünki həmin adamlar şəhadəti gətirirdilər. Bu şübhədən dolayı onlara küfr hökmünü verməmişlər.

Bundan savayı məlum olduğu kimi, əşarilər və kəlam əhli əqli təhsin və təqbih[3] deyilən şeyi qəbul etmirlər. Bu isə şirkin risalətdən öncə pis və çirkin əməl olmadığını ifadə edir. Yəni onlara görə risalətdən öncə hər hansı bir əməl yaxşı yaxud pis olaraq vəsf edilə bilməz. Buna əsasən onlara görə risalətdən öncə şirk edən insanların əməlləri pis hesab edilməmiş və həmin əməlləri edənlər də, müşrik adlanmamışlar. Elə isə, əgər təkfir dinin əsli olsaydı, sələf imamları heç bir təfsilata varmadan əşarilərin kafir olmalarına icma edərdilər. Çünki onlar, bu adamların iddiasına və sözlərinin gərəkdirməsinə görə dinin əslini yerinə yetirməmişlər. Habelə belə olsaydı, Əhli Sünnədən olan imamlar əşarilərin küfrünə səbəb kimi onların təkfiri dinin əslindən görmədiklərini deyərdilər. Bu səbəbdən, cəhaləti üzr görənləri təkfir etmək mütləq olaraq əşariləri və kəlam əhlini təkfir etməyi gərəkdirir. Lakin məlumdur ki, buna dair sələf imamlarından hər hansı bir icma gətirmək qeyri-mümkündür. Halbuki sələf imamları cəhmiyyə firqəsindən şaxələnən əşarilər və maturudilərin küfr sayılan etiqadları sırasında tamamilə fərqli şeyləri qeyd etmişlər, ələxsus onların Allahın sifətlərini təvil edib təhrif etmələrini yaxud sifətlərin mənalarını təfvid etmələrini yaxud tətıl etmələrini qeyd etmişlər. Həmçinin Şeyxul-İslam İbn Teymiyyə əşarilərin təhsin və təqbih əl-aqli etiqadı haqda söz açanda bu etiqadın Əhli-Sünnənin etiqadına

[3] Əşarilərə görə bir şeyin pis yaxud yaxşı olması mücərrəd olaraq ağıl ilə sabit olmur və bu şeylər yalnız risalətin gəlişindən sonra bilinir. Misal üçün onlara görə risalətdən öncə şirk pis və çirkin əməl olmamışdır. Habelə zina, oğurluq, quldurluq və digər əməllər pis yaxud yaxşı olaraq vəsf edilməmişdir. Onlara görə bir şeyin yaxşı yaxud pis olduğunu şəriət təyin edir.

müxalif olduğunu demiş lakin bunun dindən çıxardan küfr olduğuna yaxud əşarilərin bu etiqadla mürtəd olduqlarına ümumiyyətlə toxunmamışdır.

Həmçinin İslamdan öncə yaşamış hənifləр şər`i adlar və onun nəticəsində ortaya gələn əhkamlar haqda cahil olmuşlar və öz qövmlərinin zəlalət üzərə olmalarını etiqad etməklə kifayətlənmişlər. Bu da, onların İslamını səhih etmişdir. Cahiliyyət zamanı yaşamış hənifləр Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmamış və öz qövmlərini zəlalət üzərə görmüşlər. Lakin onlarla ədavət etməmiş və onları təkfir etməmişlər.

Ortaya bir sual çıxır: Məgər İslama mənsub olub şəhadəti gətirən şəxsin şirkini görüb onun təkfir edilməsi üçün onun cahilliyini maneə görən şəxslər həmin şirk edən insanların əməlinin şirk olduğunu və həmin şirki edən insanların haqq yoldan azdıqlarını, yəni zəlalətdə olduqlarını qəbul etmirlər? Cavab: Heç şübhəsiz ki, onların haqq yoldan azdıqlarını və zəlalətdə olduqlarını qəbul edirlər. Cəhaləti üzr gətirənlər yalnız həmin cahillərə və avamlara şər`i anlamda gələn təkfir hökmünü çıxartmaq üçün maneə hesab etdikləri şeylərin aradan qalxmasını şərt görürlər. Həniflərin isə öz qövmlərini təkfir etdiklərini iddia etmək, əsassız və savadsız iddiadır. Çünki misal olaraq cahiliyyət dövründə yaşamış Amr İbn Abəsə əs-Suləmi belə demişdir: “Cahiliyyət dönəmində insanlar bütlərə ibadət etdikləri zaman onların zəlalət üzərə olduqlarını və heç bir şey üzərə olmadıqlarını düşünürdüm.” Amr öz ağlı ilə onların bütlərə ibadət etmələrini çirkin görmüş və onların zəlalət üzərə olmalarını düşünmüşdür. Lakin o, onların felləri nəticəsində ortaya gələn təkfiri yaxud İslam adının aparılmasını yaxud onlara düşmənçilik etməyi bilməmişdir. Çünki həmin hənifləр tövhiddən yalnız Allaha ibadət etməyi və Ona heç bir şeyi şərik qoşmamağı və Allaha şərik qoşmağın zəlalət olmasını və şərik qoşanların haqq yoldan azdıqlarını bilmişlər. Lakin deyilsə ki, Amr ibn Abəsə: Cahiliyyət dönəmində insanların zəlalət üzərə olduqlarını düşünürdüm,-deməsilə müşrikləri təkfir etmişdir, buna cavab olaraq deyiləcək: Əslində tədlil (yəni bir kəsi zəlalət üzərə görmək) ilə təkfir arasında bağlılıq yoxdur. Çünki bəzən insan risalətdən öncə belə zinanın, şərab içməyin, oğurluq və quldurluq etməyin, insanları qətlə yetirməyin pis işlər və zəlalət olmasını, həmçinin bu işləri edənlərin zəlalət və səhv yolda olmalarını etiqad edir. Həmçinin bu şeylərin pis və çirkin işlər olması, qeyd edildiyi kimi Əhli Sünnənin etiqadına görə risalətdən öncə belə ağılla bilinir. Lakin bu şeylərin zəlalət və pis işlər olmasını etiqad etməsi, heç də həmin şeylərin küfr olmasını gərəkdirmir. Çünki zəlalət Allahın haram etdiyi bütün işləri şamil edən addır,

istər o dindən çıxardan küfr olsun istərsə də böyük günahlar dərəcəsində olan günahlar olsun. Habelə Amr İbn Abəsənin: Onlar bütlərə ibadət edirdilər,- deməklə onları təkfir etmişdir deyilsə, cavab olaraq deyiləcək ki, onların bütlərə ibadət üzərə olan halını vəsf etməklə onları təkfir etmək arasında da, bağlılıq yoxdur. Çünki qeyd edildiyi kimi şirk edənlərə cahilliklərini üzr gətirən şəxslər də, onları qəbirlərə ibadət edənlər olaraq vəsf edirlər, buna rəğmən təkfir hökmünü onlara endirməyə maneələr görürlər. Habelə misal üçün əgər ikrah altında olan biri, Allahdan qeyrisinə dua etsə yaxud ibadət etsə yaxud Allahın dinini söysə, onun bununla kafir olması gərəkli deyil, halbuki həmin əməli etməklə vəsf edilir. Buna görə Allahdan qeyrisinə ibadət etdiyini vəsf etmək ilə nasslar vasitəsilə bilinən təkfir hökmü arasında sıx bağlılıq yoxdur. Həmçinin həniflərdən olmuş Zeyd ibn Amr ibn Nufeylin Qureyşin bütlərə kəsdiklərini yemədiyini, təkfirin dinin əsli olması üçün dəlil gətirirlər. Bu da, yersiz gətirilən dəlildir. Əvvəla ona görə ki, Zeyd ibn Amr Qureyşin kəsdiklərini deyil onların sırf olaraq bütlərə kəsdiklərini yemirdi. Zeyd ibn Amr deyərdi ki, qoyunu Allah yaratmışdır, onun üçün göydən su endirmişdir və qidalansın deyə onun üçün yerdən müxtəlif bitkilər bitirmişdi. Siz isə heyvanı Allah üçün deyil bütlər üçün kəsirsiniz. Lakin bu məsələnin təkfirlə heç bir əlaqəsi yoxdur. Çünki Zeyd onların kafir olduqlarını etiqad etdiyindən dolayı deyil, Allahdan qeyrisi üçün kəsdiklərindən ötrü ətləri yemirdi. Çünki müşrikin kəsdiyi əti yeməyin haramlığı şəriət hökmüdür və ağılla bilinən şey deyil. Ancaq Allahdan qeyrisinə kəsilən ətləri yemək sağlam fitrətin qəbul etmədiyi haldır. Əgər Zeyd onların ətlərini təkfir etdiyindən dolayı yeməsəydi- halbuki qeyd edildiyi kimi bu şəriətin gətirdiyi hökmdür, bu halda həniflərin həmin kafirlərə qız verməlləri də, icazəsiz olardı. Yəni kafir gördüyündən dolayı bir şəxsin kəsdiyi əti yemirsə, ona öz qızını ərə verərmi?  Halbuki məlumdur ki, Allah Rəsulu  Cahiliyyət dönəmində iki qızını kafirlərə vermişdir.

Bütün qeyd edilənlərdən məlum olur ki, təkfir lə iləhə illəllah kəlməsinin mənası deyil və sadəcə həmin kəlmənin mənasından çıxan lazımıdır və onun tələb etdiyi hökmüdür. Belə olan halda, hər hansı şübhədən dolayı küfr və şirk edən bəzi şəxslərin təkfirində dayanan adamın təvili yaxud cəhaləti yaxud ictihadı onun üçün üzür sayıla bilər və onun xəta etdiyi və xətası səbəbdən üzürlü olması deyilə bilər.

Şeyx Süleyman ibn Səhman “Kəşful əuham val iltibəs” kitabında demişdir: “Əgər fərz edilərsə ki, alimlərdən biri qəbirə sitayiş edənlərə təqlid edən

cahillərin təkfirində dayanmışdır, onun üçün üzr gətirməyimiz və onun yanlışlıq edib üzürlü olduğunu deməyimiz mümkündür.”

Təkfirin lə iləhə illəllah kəlməsinin lazımlarından olması haqda alimlərin sözlərinə nəzər yetirək:

Abdur-Rahmən ibn Həsən (əd-Durarus səniyyə:2/359-360) lə iləhə illəllah kəlməsinin şərtlərini qeyd edərkən demişdir:

السادس: الانقياد المنافي للترك، لأن من الناس من يقولها و هو يعرف معناها، لكنه لا ينقاد للإتيان بحقوقها و لوازمها من الولاء و البراء، و العمل بشرائع الإسلام، و لا يلائمه إلا ما وافق هواه، أو تحصيل دنياه، و هذه حال كثير من الناس

“Altıncı: Tərk etmənin əksi olan təslimiyyət. Çünki insanlardan elələri vardır ki, onun mənasını bilir lakin dostluq və düşmənçilik və İslamın şər`i buyuruqlarına əməl kimi onun hüquqları və lazımlarını yerinə yetirmirlər. Beləsinə yalnız onun nəfsi istəyinə uyğun gələn yaxud dünya mənfəəti olan şeylər münasib sayılır. Bu da bir çox insanların halıdır.”

Nəcd alimi Abdur-Rəhman ibn Həsən bu nəqldə açıq şəkildə qeyd edir ki, dostluq və düşmənçilik (valə val bəra) lə iləhə illəllah kəlməsinin lazımlarındandır. Təkfir isə məlum olduğu kimi dostluq və düşmənçilik anlamına daxil olan məsələdir. Yəni düşmənçiliyin (əl-bəra) əfradlarından olan bir məsələdir. Çünki kafirlərə düşmənçilik (əl-bəra) etmək, onlara nifrət etməyi, onlardan uzaqlaşmağı və onları təkfir etməyi gərəkdirir.

Həmçinin Abdur-Rəhman ibn Həsən (Fətəval əimmətin nəcdiyyə: 3/168) buyurur:

إن الله جعل عداوة المشرك من لوازم هذا الدين

“Uca Allah müşrikə düşmənçilik etməyi bu dinin lazımlarından etmişdir.”

Abdur-Rəhman ibn Həsən “Əslud din va qaidətuh” kitabının şərhində buyrurur:

وفي الحديث( من قال لا إله إلا الله وكفر بما يعبد من دون الله حرم ماله ودمه وحسابه على الله تعالى.) وقال في شرحه :ووسم الله تعالى أهل الشرك بالكفر فيما لا يحصى من الآيات فلا بد من تكفيهم أيضا

هذا هو مقتضى لا إله إلا الله كلمة الإخلاص فلا يتم معناها إلا بتكفير من جعل لله شريكا في عبادته

“Hədisdə gəlmişdir: “Kim lə iləhə illəllah deyib Allahdan başqa ibadət olunanlara küfr edərsə, onun malı və qanı haram olar. Onun sorğu-sualı isə Allaha aiddir.” Şərhçi dedi: Uca Allah sayı çox olan ayələrdə şirk əhlini küfr ilə vəsf etmişdir. Bu səbəbdən onları həmçinin təkfir etmək labüddür. Bu da, ixlas kəlməsi olan lə iləhə illəllahın tələbidir. Həmin kəlmə yalnız ibadətdə Allaha şərik qoşanın təkfir edilməsilə tamamlanmış olur.”

Həmçinin Abdur-Rəhman ibn Həsən həmin risalənin şərhində buyurur:

وهذا النوع لم يأت بما دلت عليه لا إله إلا الله من نفي الشرك وما تقتضيه من تكفير من فعله بعد البيان إجماعا

**“**Bu növ insanlar da, şirki inkar etmək və onun tələbi olan (şirki) edəni təkfir kimi lə iləhə illəllahın dəlalət etdiyi şeyləri icma ilə bəyandan sonra yerinə yetirmiş olmurlar.”

Abdur-Rahmən ibn Həsən son iki nəqldə təkfirin lə iləhə illəllah kəlməsinin tələbi olduğunu qeyd edir. Yəni lə iləhə illəllah kəlməsinin gərəkdirdiyi lazımlardan olduğunu vurğulayır.

Şeyx Süleyman ibn Abdullaha (Əd-Durarus səniyyə:8/167-168) dostluq və düşmənçilik haqda sual verilmişdir:

المسألة السادسة: في الموالاة و المعادة، هل هي من معني لا إله إلا الله أو من لوازمها؟

الجواب أن يقال: الله أعلم، لكن بحسب المسلم أن يعلم أن الله افترض عليه عداوة المشركين، و عدم موالاتهم، و أوجب عليه محبة المؤمنين و موالاتهم، و أخبر أن ذلك من شروط الإيمان، و نفي الإيمان عمن يواد من حاد الله و رسوله، ولو كانوا آباءهم أو أبناءهم أو إخوانهم أو عشيرتهم، و أما كون ذلك من معني لا إلا الله أو لوازمها، فلم يكلفنا الله بالبحث عن ذلك، إنما كلفنا بمعرفة أن الله فرض ذلك و أوجبه، و أوجب العمل به، فهذا هو الفرض و الحتم الذي لا شك فيه، و من عرف أن ذلك من معناها أو من لازمها فهو حسن و زيادة خير، و من لم يعرفه فلم يكلف بمعرفته

“Altıncı məsələ dostluq və düşmənçilik haqdadır: O lə iləhə illəllah kəlməsinin mənasındandır yoxsa onun lazımlarındandır?

Cavab olaraq deyiləcək: Doğrusunu Allah bilir! Ancaq müsəlmanın bunları bilməsi yetərlidir ki, Allah ona müşriklərlə düşmənçilik etməyi, onlarla dostluq

etməməyi fərz etmiş və möminləri sevib onları dost tutmağı vacib etmişdir və bunun imanın şərtlərindən olduğunu xəbər vermişdir. Habelə Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları və qohum-əqrəbaları olsalar belə- dostluq edən şəxsin imansız olduğunu demişdir. Bunun lə iləhə illəllah kəlməsinin mənasından yoxsa lazımlarından olması məsələsinə gəldikdə isə, Allah bizi bu cür şeyləri araşdırmağı öhdəmizə buraxmayıb. Biz yalnız Allahın bizə fərz və vacib etdiyi şeyləri bilməklə və ona əməl etməklə mükəlləfik. Şübhə doğurmayan fərz və vacib məhz budur. Kim onun (lə iləhə illəllahın) mənasından yaxud lazımından olmasını bilsə bu yaxşı olacaq və əlavə bir xeyir olacaq. Bunu bilməyən şəxsin üzərində isə həmin şeyi bilmək öhdəçiliyi yoxdur."

Süleyman ibn Abdullahın bu sözlərindən anlaşılır ki, dostluq və düşmənçilik, dinin əsli və lə iləhə illəllah kəlməsinin mənası deyil. Çünki əgər belə olsaydı, şeyx Süleymanın dinin əsli haqda, filan şeyin dinin əsli olub olmadığını bilmirəm və Allah bizi bunu araşdırmaqla mükəlləf etməyib deməsi yanlış olardı. Lakin şeyxin həmin suala bu formada cavab verməsi, sualı yollayan adamların bu mövzuda çəkişmə apardıqlarından dolayı idi. O isə həmin ixtilafa son qoymaq və gərginliyi aradan qaldırmaq üçün dostluq və düşmənçiliyin vacib əməllərdən olmasını deməklə kifayətlənmiş və çəkişməyə yol açan sözlərdən insanları uzaqlaşdırmağa çalışmışdır. Halbuki digər Nəcd alimi Abdur-Rəhman ibn Həsən yuxarıda gətirdiyimiz nəqldə dostluq və düşmənçiliyin lə iləhə illəllah kəlməsinin lazımlarından olmasını açıq qeyd etmişdir.

Həmçinin təkfirin dinin əsli olduğunu iddia edənlər, bu mövzuda Nəcd alimlərinin dedikləri bəzi sözləri dəlil gətirirlər. Əslində bu din şəxslərin sözləri üzərində qurulmayıb və Allah Rəsulunun –salləllahu aleyhi və səlləm- sözlərindən başqa bütün insanların sözlərinə nöqsan və yanlışlıq daxil ola bilər. Lakin buna rəğmən həmin sözlərdə də, onlar üçün heç bir dəlil yoxdur. Çünki əsasən bu mövzuda danışan cahillər həmin alimlərin bu sözlərini oxuyub onun məğzini anlamırlar və yaxud həmin sözlərə səthi yanaşırlar.

Misal üçün, şeyx Muhamməd ibn Abdul-Vahhab "Əslud din va qaidətuh" kitabında buyurur:

أصل الدين و قاعدته أمران: الأول: الأمر بعبادة الله وحده لا شريك لـه، و التحريض على ذلك، الموالاة فيه، و تكفير من تركه، الثاني: الإنذار عن الشرك في عبادة الله، و التغليظ في ذلك، و المعاداة فيه، و تكفير من فعله

“Dinin əsli və təməli iki şeydir: Birinci: Tək və şəriksiz Allaha ibadəti əmr etmək, buna təşviq etmək, ondan ötrü dostluq etmək, onu tərk edəni təkfir etmək. İkinci: Allaha ibadətdə şərik qoşmaqdan çəkindirmək, bu işdə sərt olmaq, ondan ötrü düşmənçilik etmək və onu edəni təkfir etmək.”

Əslində şeyx burada insanı İslama daxil edən əslud dinin hüdudlarını qeyd etmək istəməmişdir. Əks halda deyiləcək ki, Allaha ibadət etməyi əmr etmək, ona təşviq etmək kimi şeylərin də dinin əsli olduğu deyilməlidir. Yəni bu şeyləri etməyən insanın, yəni əmr və qadağan etməyən və bu işlərə təşviq etməyən insanın İslama girməsi səhih olmur. Həmçinin şirk məsələsində təğliz, yəni sərtlik göstərməyin dinin əsli olması deyilməlidir. Halbuki dindən zəruri bilinir ki, bu şeylərin dinin əsli olmasını deyən olmayıb. Adı çəkilən bəzi şeylərin dinin vaciblərindən olması və zəiflik zamanı ümumiyyətlə vacib olmaması deyiləcək. Şeyxin sözlərində gələn təkfirin, dinin əsli olduğunu deyən şəxs, mütləq həmin sözlər əsnasında gələn tövhidə təşviq etməyin və şirkə qarşı sərtlik göstərməyin də, dinin əsli olmasını deməsi gərəkdir. Əks halda, bu sözləri deməklə ziddiyətə düşəcək. Yox əgər bu şeylərin də, şəhadəti dilə gətirib İslam dininə girmək istəyən insana labüd olduğunu və onu həyata keçirtməsə onun İslamının səhih olmayacağını desə, bu halda sələfin dönəmindən günümüzəcən heç kəsin dediyi bir sözü dilə gətirmiş olacaq.

Halbuki həmin sözləri şərh edən Abdur-Rəhman ibn Həsən həmin işlərin dinin əsli deyil tövhidi tamamlayan məsələlər olduğunu qeyd etmişdir. Buyurur:

ووسم الله تعالى أهل الشرك بالكفر فيما لا يحصى من الآيات فلا بد من تكفيهم أيضا هذا هو مقتضى لا إله إلا الله كلمة الإخلاص فلا يتم معناها إلا بتكفير من جعل لله شريكا في عبادته,,, فهذه الأمور من تمام التوحيد

“Hədisdə gəlmişdir: “Kim lə iləhə illəllah deyib Allahdan başqa ibadət olunanlara küfr edərsə, onun malı və qanı haram olar. Onun sorğu-sualı isə Allaha aiddir.” Şərhçi dedi: Uca Allah sayı çox olan ayələrdə şirk əhlini küfr ilə vəsf etmişdir. Bu səbəbdən onları həmçinin təkfir etmək labüddür. Bu da, ixlas kəlməsi olan lə iləhə illəllahın tələbidir. Həmin kəlmə yalnız ibadətdə Allaha şərik qoşanın təkfir edilməsilə tamamlanmış olur...Bir qədər sonra buyurur: Bu məsələlər, tövhidin tamamındandır.”

Həmçinin bilmək lazımdır ki, hər hansı bir alimin filan şey dinin əslindəndir deməsi, heç də həmin deyilən şeyin lə iləhə illəllah kəlməsinin ərkanlarından biri olmasını gərəkdirmir. Bəzən alimlər lə iləhə illəllah kəlməsinin vacibləri yaxud hüquqları haqda onun dinin əslindən olduğunu deyirlər. Ancaq bu o demək deyil

ki, insan İslama ilk girdiyi anda onun İslamının səhihliyi onu bilməsinə və etiqad etməsinə dayanır yaxud insan onu bilməməklə üzürsüz olur.

Misal üçün Şeyxul-İslam (məcmu əl-fətəva:22/254) buyurur:

فإن الاعتصام و بالجماعة و الائتلاف من أصول الدين

“Həqiqətən, camaatdan möhkəm yapışmaq və bir olmaq dinin üsullarındadır.”

Burada Şeyxul-İslam lə iləhə illəllah kəlməsinin hüquqlarından olan camaat olmaq əmrini dinin əslindən olduğunu vurğulayır.

Yaxud digər yerdə İbn Teymiyyə (Minhəcus sünnə:3/64) ibadətin əfradlarını sadalayaraq buyurur:

و أصل الدين أن يكون الحب لله و البغض لله و الموالاة لله و المعاداة لله و العبادة لله و الاستعانة بالله و الخوف من الله و الرجاء لله و الإعطاء لله و المنع لله، و هذا إنما يكون بمتابعة رسول الله الذي أمره أمر الله و نهيه نهي الله و معاداته معاداة الله و طاعته طاعة الله و معصيته معصية الله

“Dinin əsli, sevginin və nifrətin Allah üçün olmasıdır, dostluğun və düşmənçiliyin Allah üçün olmasıdır, ibadətin Allah üçün olmasıdır, yardımın Allahdan istənilməsidir, qorxunun və ümidin Allaha olmasıdır, ətanın və məhrum etmənin Allah üçün olmasıdır. Bütün bu şeylər isə Allah Rəsuluna tabeçiliklə olur. Çünki onun əmri Allahın əmridir, onun qadağası isə Allahın qadağasıdır, habelə onun düşmənçiliyi Allahın düşmənçiliyidir, ona itaət Allaha itaətdir və ona asi olmaq Allaha asi olmaqdır.”

Şeyxul-İslam burada insanın edəcəyi bütün əməllərin Allah üçün edilməsini dinin əsli adlandırır. Halbuki adı çəkilən əməllərin içində insanın tövhidini kamilləşdirən və tərk ediləcəyi zaman onun İslamını pozmayan əməllər də, sadalanır.

Habelə dəlil olaraq “əl-Mumtəhənə” surəsindəki ayəni dəlil gətirirlər. Uca Allah həmin ayədə buyurur:

قد كانت لكم أسوة حسنة في إبراهيم و الذين معه إذ قالوا لقومهم إنا براء منكم و مما تعبدون من دون الله كفْرنا بكم و بدا بيننا و بينكم العداوة و البغضاء أبدا حتي تؤمنوا بالله وحده إلا قول إبراهيم لأبيه لأستغفرن لك و ما أملك لك من الله من شيء ربنا عليك توكلنا و إليك أنبنا و إليك المصير

*"İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl bir nümunə vardır. Onlar öz qövmünə dedilər: "Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda ədavət və nifrət aşkar oldu!" Yalnız İbrahimin öz atasına: "Mən sənin üçün mütləq bağışlanma diləyəcəyəm. Fəqət Allahdan sənə gələn əzabı dəf edə bilmərəm!"-deməsi istisnadır. Onlar dedilər: Ey Rəbbimiz! Biz yalnız Sənə təvəkkül edir və yalnız Sənə üz tuturuq. Dönüş də yalnız Sənədir."*

Ğulatlar iddia etmişlər ki, ayədə İbrahimin öz qövmü ilə rəftarı və bizə nümunə olan davranışı dinin əslidir. Həmçinin həmin ayədə gələn "kəfərnə bikum" sözünün "biz sizi təkfir etdik" olmasını iddia etmişlər. Həmin kəlmənin izahı haqda digər bir risalədə geniş açıqlama gətiriləcək və onların iddiasının əsassız olduğu bəyan ediləcək. Ancaq burada məsələ başqadır. Fərz etsək ki, həmin kəlmə həqiqətən təkfir etdik deyə ifadə olunur, bu zaman sual olunur, adı çəkilən şeylərin dinin əsli olduğunu haradan götürdünüz? Buna hansı amillər dəlalət edir? Əlsində isə, heç də adı çəkilən bütün şeylərin dinin əsli olmadığı açıq-aydındır.

Bunun izahı: Əvvəla həmin ayənin nazil olma səbəbini bilmək lazımdır. Həmin ayə kafirlərə yardım etmədən onlara mehribanlıq göstərib Allah Rəsulunun –salləllahu aleyhi və səlləm- sirrini kafirlərə açan Hatıb ibn Bəltəa adlı səhabə haqda nazil olmuşdur. Bəlli olur ki, həmin ayə İbrahimin felində öz əksini tapan gözəl nümunədə nöqsana yol verib dinin əslini deyil vacib imanı həyata keçirtməyən şəxs haqdadır.

Qurtubi həmin ayənin təfsirində demişdir:

لما نهى عز و جل عن موالاة الكفار ذكر قصة إبراهيم، و إن من سيرته التبرؤ من الكفار، أي فاقتدوا به

"Uca Allah kafirlərlə dostluq etməyi qadağan etdikdə, İbrahimin əhvalatını və onun yolundan, kafirlərdən uzaq olmasını qeyd etdi. Yəni onu özünüzə örnək tutun."

Elə isə Hatıb dinin əslinə yoxsa vacib bəraətə müxalif olmuşdu?!

Həmçinin ayədə İbrahim və onunla birlikdə olanlar öz qövmlərinə növbəti şeyləri deyirlər: *“Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda ədavət və nifrət aşkar oldu!”*

Uca Allah burada İbrahimin Allahdan başqa ibadət edilən məbudlardan və onlara tapınan insanlardan bəraət etməsini, onları inkar etməsini və onlara ədavəti və nifrəti üzə çıxartmasını xəbər verir.

Həmin ayədə “bədə” feli gəlir. Yəni üzə çıxdı, aşkar oldu. Yəni Allah İbrahimin və onunla birlikdə olanların ədavəti və nifrəti aşkar etdiklərini xəbər verir. Sual olunun insanın İslam dininə girməsi üçün müşriklərə nifrəti və ədavəti üzə çıxartması şərtdirmi? Yəni insan kafirlərə və müşriklərə nifrəti və ədavəti üzə çıxartmasa dinin əslini həyata keçirtməyəcək yoxsa bunun istisna halları vardır? Əgər istisna hallarda, misal üçün zəiflik halında bunu aşkar etməməyin dini pozmadığı deyilsə, bu zaman ayədə keçən hər bir şeyin dinin əsli olmadığı bəlli olacaq. Ədavəti və nifrəti aşkara çıxartmağın hər bir halda dinin səhih olması üçün şərt olduğu deyilsə, ortaya böyük ziddiyətlər çıxacaq. Çünki Allah Rəsulu risalətin əvvəlində Məkkə müşriklərinə ədavəti aşkara çıxartmırdı və onların ilahlarını ayıblamırdı.

İshaq ibn Abdur-Rahmən (Hukmu təkfiril muayyən:21) buyurur:

وقد لايستطيع المسلم إظهار العداوة للكفار والمشركين لمانع أو عذر كاستضعاف لمن ليس له منعة أو إكراه فيكون معذوراً إلى زوال المانع وأما من لم يظهر العداوة للمشركين لغرض دنيوي وإيثاراً لحظ من حظوظ النفس مع بغضهم واعتقاد كفرهم فهذا عاص مذنبٍ وكل بحسبه فإن انتفت البغضاء من القلب انتفى معها الإيمان لملازمة الظاهر للباطن وذلك لأن محلها القلب ولاسبيل لأحد عليها بإكراهٍ أوغيره كما هو صريح في قوله تعالى : {إلا من أكره وقلبه مطمئن بالإيمان }فتنبه

“Bəzən müsəlman, gücə sahib olmadığı üçün zəiflik yaxud ikrah kimi hansısa maneədən yaxud üzürdən dolayı kafirlərə və müşriklərə ədavəti üzə çıxartmaq imkanında olmur. Bu halda o, maneə aradan qalxana qədər üzürlü olur. Ancaq əgər biri, onlara nifrət etməsi ilə və onların küfrünü etiqad etməsilə birgə dünyavi mənfəətdən və nəfsi istəklərini önə çəkdiyindən dolayı müşriklərə ədavəti üzə çıxartmasa, beləsi asikar və günahkar olacaq. Ancaq əgər qəlbdə nifrət yoxa çıxsa, onunla birgə iman da yoxa çıxacaq. Çünki zahirin daxil ilə sıx bağlılığı vardır. Səbəb isə, onun yerinin qəlb olmasıdır. Heç kəs onu (yəni qəlbi) ikrah yaxud digər şeylə döndərə bilməz. Uca Allah bunu açıq şəkildə bəyan edir: *“Qəlbi imanla sabit olduğu halda ikrah edilən müstəsnadır.”* Buna diqqət yetir!”

Habelə Şeyxul-İslam ibn Teymiyyə (ən-Nubuvvət:317) buyurur:

ويوسف عليه السلام دعا أهل مصر لكن بغير معاداة لمن لم يؤمن، ولا إظهار مناوأة بالذم والعيب والطعن لما هم عليه كما كان نبينا أول ما أنزل عليه الوحي وكانت قريش إذ ذاك تقره ولا ينكر عليه إلى أن أظهر عيب آلهتهم ودينهم وعيب ما كانت عليه آباؤهم وسفه أحلامهم فهنالك عادوه وآذوه .وكان ذلك جهادا باللسان قبل أن يؤمر بجهاد اليد قال تعالى( ولو شئنا لبعثنا في كل قرية نذيرا فلا تطع الكافرين وجاهدهم به جهادا كبيا .)وكذلك موسى مع فرعون أمره أن يؤمن بالله وأن يرسل معه بني إسرائيل وإن كره ذلك وجاهد فرعون بإلزامه بذلك بالآيات التي كان الله يعاقبهم بها إلى أن أهلكه الله وقومه على يديه

“Yusuf –aleyhis sələm- Misir əhlini, iman etməyənlərə qarşı ədavət etmədən, habelə onların halına məzəmmət etmə, pisləmə və yamanlama kimi şeylərlə düşməmçiliyi biruzə vermədən onları dəvət etmişdir. Necə ki, Peyğəmbərimiz –salləllahu aleyhi və səlləm- vəhyin ilk nazil olma vaxtı olmuşdur. Həmin dönəmdə Qureyş onu qəbul edir və ona irad tutmurdular. Nəhayət Peyğəmbər –salləllahu aleyhi və səlləm- onların ilahlarını və dinlərini, habelə atalarının tutduqları yolu ayıbladığı və onların zəlalət üzərə olduqlarını bildirdiyi zaman onlar ona düşmənçilik etdilər və ona işkəncələr verdilər. Bu isə, əl ilə cihad etməklə əmr olunmazdan öncə dil ilə cihad olmuşdur. Uca Allah buyurur: *“Əgər istəsəydik, hər kəndə qorxudan bir peyğəmbər göndərərdik. Belə olduqda sən kafirlərə baş əymə və onlara qarşı bununla (Quranla) böyük bir cihad et!”* Həmçinin Musanın Fironla olan əhvalatı. Musa onu, Allaha iman gətirməsini və xoş gəlməsə də İsrail oğullarını onunla rahat buraxmasını əmr etdi. Daha sonra Musa Fironu buna vadar etməkdən ötrü Allahın onlara cəza olaraq göndərdiyi ayələr vasitəsilə mübarizə apardı. Nəhayət Allah onu və onun qövmünü Musanın əlləri ilə həlak etdi.”

Şeyxul-İslamın bu sözlərindən bəlli olur ki, ədavəti izhar etmək dinin əsli deyil. Çünki əgər ayədə İbrahimin və onunla birlikdə olanların ədavəti və nifrəti izhar etmələri dinin əsli olsaydı, bu halda Yusuf peyğəmbərin, həmçinin Peyğəmbərimizin İslamın ilk vaxtlarında müşriklərə ədavəti üzə çıxartmaması anlaşılmaz olardı.

Məlum olur ki, ayədə qeyd edilən gözəl nümunə, imanın müxtəlif şöbələrini özündə şamil edən dinin əslini, dinin vaciblərini və dinin tələblərini ifadə edir. Təkfir isə, qeyd edildiyi kimi lə iləhə illəllah kəlməsinin mənasından şaxələnən və onun lazımı olan vaciblərdəndir. İnsanın hansısa səbəbdən ötrü vaciblərdə

xətaya düşməsi yaxud təvil etməsi yaxud cahil qalması, onun üçün üzür sayıla bilər və bu məsələdə Əhli Sünnə yekdil olmuşlar.

Şeyxul-İslam (Məcmu əl-fətəva: 12/494) buyurur:

فمن كان قد آمن بالله و رسوله، و لم يعلم بعض ما جاء به الرسول فلم يؤمن به تفصيلا: إما أنه لم يسمعه أو سمعه من طريق لا يجب التصديق بها أو اعتقد معنى آخر لنوع من التأويل الذي يعذر به، فهذا قد جعل فيه من الإيمان بالله و برسوله ما يوجب أن يثيبه الله عليه، و ما لم يؤمن به فلم تقم عليه الحجة التي يكفر مخالفها

“Allaha və Onun Elçisinə iman gətirib Peyğəmbərin gətirdiyi bəzi şeylər haqda bilgisi olmayan və ona təfsilatlı şəkildə iman etməyən şəxs, bunu eşitmədiyinə yaxud təsdiqi vacib etməyən yoldan onu eşitdiyinə görə yaxud üzürlü olacaq bir növ təvildən dolayı başqa mənanı etiqad etdiyinə görə olsa, beləsinin Allaha və Onun Elçisinə olan imanı, Allahın onu həmin imandan ötrü mükafatlandırmasını vacib edəcək. İman etmədiyi şeydən ötrü isə, müxalif olanı kafirə çevirən hüccət onun üzərindən qalxmamışdır.

Müsəlmanın, insanları öz bidətlərilə imtahan edən və onları dinlərində şübhəyə salan adamlardan həzər etməsi və zahiri xoş görsənən əslində isə daxilində böyük fəsadlara yol açan mövzulardan kənar durması lazımdır.

Allah Rəsulu –salləllahu aleyhi və səlləm- buyurur:

إن الدين يسر، و لن يشاد الدين أحد إلا غلبه

“Şübhəsiz, din asanlıqdır. Elə birisi yoxdur ki, dini çətinləşdirdikdə din ona üstün gəlməsin."

Hafiz İbn Həcər (Fəthul bəri:1/94) buyurur:

و المعني لا يتعمق أحد في الأعمال الدينية و يترك الرفق إلا عجز و انقطع فيغلب

“Mənası: Elə bir kəs yoxdur ki, dini əməllərdə dərinləşib yumşaqlığı tərk etdikdə aciz qalıb davam edə bilməsin və sonda (dərinləşdiyi şey) ona üstün gəlməsin.”

Va salləllahu alə nəbiyyinə muhamməd va əlihi va sahbihi və səlləm.

Hazırladı: Əbu Ənəs.